QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



*"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir*


# SƏS

*Qəzet 1991-ci il yanvarın 11-dən çıxır*

№ 151 (5871) **22 avqust** 2019-cu il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**


# Azərbaycanda sarsılmaz xalq-iqtidar birliyi mövcuddur!



Səh 2

4

**"Müxalifətin pilotun həlak olmasından siyasi dividend qazanmağa çalışması insanlığa yaraşmayan hərəkətdir"**



4

**"MiQ-29" təyyarəsinin pilotu Rəşad Atakişiyev dəfn edilib**



7

**Cəmil Həsənli, dəfn mərasimi üzərindən siyasi manipulyasiya hansı etik və əxlaqi çərçivəyə sığar?**



# Azərbaycanda sarsılmaz xalq-iqtidar birliyi mövcuddur!

## *Əli Əhmədov: “Müxalifəti dəstəkləməyin və maliyyələşdirməyin yeni forması kimi internet televiziyalardan və digər texnologiyalardan geniş istifadə edilir”*

***Dünyada öz iqrisadi inkişafı, ictimai-siyasi sabitliyi ilə seçilən və tanınan Azərbaycanın əldə etdiyi uğurlar, nailiyyətlər hər gün ötən günə nisbətən daha da artmaqdadır. Bunu nufuzlu maliyyə institutları da, yaydıqları illik hesabatlarında qeyd edirlər. Amma diqqətçəkən məqam ondan ibarətdir ki, ölkəmizin əldə etdiyi nailiyyətlər, qazandığı uğurlar, beynəlxalq hüquq müstəvisində istənilən məsələ üzrə milli maraqlarını qətiyyətlə müdafiə etməsini bəzi yerli və xarici maraqlı qüvvələr həzm edə bilmirlər və qısqanclıqla yanaşırlar.***



Müxtəlif mərkəzlər bütün mümkün vasitə və üsullardan istifadə etməklə, Azərbaycanın əldə etdiyi uğurlara kölgə salmağa çalışırlar. Görünən və aydın olan məsələ ondan ibarətdir ki, bu üzdəniraq mərkəzlərin üzvlərinin sıraları genişlənməkdədir. Xaricə üz tutan və AXCP-nin, Müsavatın saxta partiya vəsiqələri ilə mühacir statusu ilə çıxış edən “azərbaycanlı” buyruq qulları əməlləri və fəaliyyətləri ilə satqın və xəyanətkar olduqlarını, istənilən an Azərbaycanın milli və dövlətçilik maraqlarına qarşı çıxmaqla sübuta yetirirlər. Yəni bu üzdəniraqlar maddi maraqları və yaşadıqları ölklərdə məskunlaşmaq izni almaq üçün istənilən xəyanətə hazırdılar.

### Müxalifət, hələ də, yenilşmədən kənarda qalıb

**Əli Əhmədov: “İş o yerə çatıb ki, “siyasi mühacir” statusunu almaq üçün, sadəcə, bəzi müxalifət partiyaların vəsiqəsinə sahib olmaq kifayətdir”**

Bu gün azadlıq və sabitlik adası olan Azərbaycanda sarsılmaz xalq-iqtidar birliyi mövcuddur. Ancaq bütün bu nailiyyətləri, hər şeydə qara axtaran və ermənipərəst mövqeləri ilə seçilən dağıdıcı müxalifət təmsilçiləri görmək istəmirlər. Söz yox ki, hüquqi- demokratik dövlət quruculuğu yolu ilə inamla irəliləyən və daim demokratik təsisatlarını təkmilləşdirən Azərbaycanda dəyişikliklərdən və yeniləşməkdən kənarda qalan belə rüsvayçı müxalifətin mövcudluğu biabırçılıqdır. 26 ildən çoxdur dəyişməyən müxalifət, təbii ki, indiki acınacaqlı vəziyyətə düşməlidir. Bu kimi faktaların fonunda, dağıdıcı müxalifət, hələ də, nəyəsə ümid edir və siyasətdə fəaliyyətlərini davam etdirməklə, növbəti seçkilərdə iştirak etmək zamanını gözləyirlər. Ancaq əbəs yerə. Çünki müxalifətin əvvəlki seçkilərdə olduğu kimi, keçirilməsi gözlənilən növbəti seçkilərdə də, acınacaqlı məğlubiyyətə düçar olacağı şübhəsizdir. Çünki xalqın müxalifətə olan mənfi münasibəti dəyişməyib və bundan sonra uzun illər, bu mövqeyin dəyişməyəcəyi şübhəsizdir. Bu mənada, Baş nazirin müavini, Yeni Azərbaycan Partiyası Sədrinin müavini-İcra katibi Əli Əhmədovun özünün “Facebook” səhifəsində paylaşdığı status maraqlı və həm də, diqqətçəkəndir: “Seçki proseslərinə müdaxilə edilməsi yolu ilə dövlətlərin daxili işlərinə qarışmaq taktikası, son dövrlərdə geniş surətdə istifadə edilməyə başlayıb. Bu barədə səs-küylü araşdırmalar, yəqin ki, müasir siyasi texnologiyaların istifadəsinin milli dövlətlərin suverenliyi üçün təhlükəli həddə çatmasından xəbər verir”.

Əli Əhmədov qeyd edib ki, indi seçki prosesinə xarici müdaxilə təhlükəsindən ABŞ-da, Avropada, Rusiyada ciddi xəbərdarlıqlar edilir, necə deyərlər, həyəcan təbili çalınır: “Müxalifəti dəstəkləmək, ona təlimlər keçməkdən tutmuş maliyyələşdirməyə qədər çox müxtəlif formalarda seçki prosesinə kobud şəkildə müdaxilə edilməsi halları uzun tarixə malikdir və təəssüflə qeyd olunmalıdır ki, biz dəfələrlə Azərbaycanda onun şahidi olmuşuq və etirazımızı bildirmişik. Müxalifətin keçirdiyi mitinqləri bir çox xarici ölkə səfirlərinin diqqətlə izləməsi, bu aksiyalar barədə əvvəlcədən müfəssəl məlumatlara malik olmaları, hətta digər ölkələrdən xüsusi missiyalı şəxslərin mitinq yerlərində peyda olmaları dəfələrlə rast gəldiyimiz hallardır. Bu azmış kimi, müxalifət partiyalarının təqdimatı əsasında bir sıra Avropa ölkələrində onlarla insana yaşamaq hüququ verilməsi, onlardan təbliğat məqsədilə vətəndaşı olduğu ölkəyə qarşı istifadə edilməsi də heç kimə sirr deyil. İş o yerə çatıb ki, “siyasi mühacir” statusunu almaq üçün, sadəcə, bəzi müxalifət partiyaların vəsiqəsinə sahib olmaq kifayətdir. Mətbuatda siyasətlə heç bir əlaqəsi olmayan insanların saxta müxalifət partiyası vəsiqəsi ilə xaricə mühacirət etməsi faktları dəfələrlə araşdırma predmeti olmuşdur. Mən bunu bəzi müxalifət partiyası rəhbərlərinin bu işdə də saxtakarlığını ifşa etmək məqsədilə demirəm, sadəcə, prosesin nə qədər geniş və iyrənc formalar kəsb etdiyini diqqətə çatdırmaq istəyirəm”.

### Xəyanətkarlıq müxalifətin xislətindədir

**Əli Əhmədov : “Sözügedən TV sahiblərindən biri təkcə reklamına ayda 10 min dollar pul xərcləyir”**

Maraqlı məqamlardan biri də, ondan ibarətdir ki, Azərbaycanın dağıcıcı müxalifəti hər hansı müxtəlif xarakterli və rəngli aksiyalar keçiriləndə, onun təcrübəsindən yararlanmağa çalışır. Sanki himə bəndlərmiş kimi, tədbirlər, yığıncaqlar keçirib və kütləvi aksiyaların keçirilməsinə qərar verirlər. Xüsusilə də, 2004-cü ildə Gürcüstanda, 2005-ci ildə Ukrayna və Qırğızıstanda yaşanan hadisələrdən sonra da AXCP, Müsavat və digər dağıdıcı xislətli partiyalar eyni hadisələrin Azərbaycanda təkrarlanacağını iddia edir, hətta narıncı rəngə bürünürdülər. Lakin ən böyük hakim olan zaman Əli Kərimlinin, İsa Qəmbərin, Cəmil Həsənlini və Arif Hacılının yanlış iddiaya düşdüklərini nümayiş etdirdi, beləcə, aksiyalar nəticəsiz qalmaqla yanaşı, müxalifətin dağılmasına təkan olan başlıca amillərdən oldu. Ancaq görünən odur ki, dağıdıcı müxalif başbilənləri öz yarıtmaz və səhv siyasətlərindən əl çəkmirlər. Bu isə, onların xarici maraqlı dairələr tərəfindən təlimatlandırıldıqlarını göstəririk. Hətta dağıdıcı müxalifətin milli və dövlətçilik maraqlarına qarşı fəaliyyətlərinin gücləndirilməsi üçün qarayaxma kampaniyası apamağa köklənən xaricdəki azərbaycanlı mühacirlərdən və internet televiziyalardan istifadə edirlər. Yəni xarici dairələr yerli və xarici müxalif təmsilçilərinin əlaqələrini koordinasyia edirlər. Yeni Azərbaycan Partiyasının İcra katibi Əli Əhmədov, haqlı olaraq bildirib ki, hazırda ölkələrin daxili işlərinə qarışmağın, onlara qarşı təbliğat aparmağın, seçki proseslərinə müdaxilə etməyin yeni forması sınaqdan keçirilir: “Bunlardan biri internet televiziyalardır. Müxalifəti dəstəkləməyin və maliyyələşdirməyin yeni forması kimi, internet televiziyalardan və digər texnologiyalardan geniş istifadə edilir. Ən acınacaqlısı da odur ki, ayrı-ayrı yad və təhlükəli maraqlar naminə, Azərbaycana qarşı çirkin yalan və böhtan kampaniyası siyasi mühacir kimi sığınacaq verilmiş və təbii ki, satılmış azərbaycanlı müxalifət təmsilçiləri tərəfindən aparılır. Yalnız sadəlövh adamlar, düşünə bilərlər ki, internet TV-lər məhdud maliyyə resursları ilə yaradılır və işlədilir. Xeyr. Sığınacaq tapdığı ölkədə heç bir işlə məşğul olmayan insanın malik olduğu resurslar internet TV işlətmək kimi heç də az vəsait tələb etməyən məşğuliyyətlə adekvat deyil. Sizi əmin edirəm ki, həmin adamlara lazımınca maliyyə dəstəyi edilir. Sözügedən TV sahiblərindən biri, təkcə reklamına ayda 10 min dollar pul xərcləyir. Deməli, söhbət Azərbaycana qarşı geniş təbliğat şəbəkəsinin yaradılmasından gedir və bir daha təkrar edirəm ki, bu iş, Azərbaycanın müxalifətinin bəzi təmsilçilərinin əli ilə həyata keçirilir”.

Əli Əhmədov Azərbaycanın bütün sağlam, milli mövqedə dayanan siyasi qüvvələrini Azərbaycana qarşı xarici təbliğata və təsirlərə, ilk növbədə isə, siyasi proseslərə, seçkilərə və müdaxilələrə qarşı vahid cəbhədə birləşməyə səsləyib: “İnanıram ki, milli mənafeləri hər şeydən üstün tutan partiyalar, siyasi baxışlarından asılı olmayaraq ölkənin suverenliyinə, Azərbaycanın müstəqilliyinə qarşı cıxış edənlərə qəti və layiqli cavab verəcək, maraqlı xarici qüvvələr tərəfindən şirnikdirmə, satınalma və şübhəli maliyyələşdirmə yolu ilə Azərbaycan müxalifətinin səbatsız nümayəndələrinin Azərbaycan dövlətinə qarşı çıxmasına imkan verməyəcək. Azərbaycan müstəqillik illərində möhtəşəm inkişaf yolu keçib, güclənib, qüdrətlənib, müasirləşib və dünyada parlaq gələcəyi olan ölkə kimi tanınıb. İnsanlar əmin-amanlıq şəraitində yaşayır, özünün, ailəsinin, övladlarının gələcəyindən nigaran deyil, ən başlıcası isə, həyatlarından məmnundurlar. Hansısa şübhəli maraqlar naminə, bu gözəl ölkənin firəvanlığına, gələcəyinə, insanlarına problem yaratmağa, xalqın suverenliyini qurban verməyə hazır olanlar xalqın və onun fəal siyasi hissəsi olan milli qüvvələrin sərt təpkisinə tuş gəlməlidirlər”.

***İ.ƏLİYEV***

# Heydər Əliyev Fondu səhiyyə və sosial sahələrdə bir sıra layihələr həyata keçirir

## *Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Fondun layihələri çərçivəsində Bakının bir sıra tibb müəssisələrində olub*











***Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva avqustun 20-də Fondun layihələri çərçivəsində paytaxtdakı Talassemiya Mərkəzində, 1 saylı Şəhər Kliniki Xəstəxanasında, Milli Onkologiya Mərkəzinin Uşaq Klinikasında müalicə olunan uşaqlarla və onların valideynləri ilə görüşüb.***

Heydər Əliyev Fondu ötən müddət ərzində səhiyyə və sosial sahələrdə bir sıra layihələr həyata keçirib. Bu layihələr sırasında "Talassemiyasız həyat naminə", ürək qüsurlu uşaqlar, xüsusi qayğıya ehtiyacı olan şəxslərə dəstək və digər səhiyyə və sosial proqramları qeyd etmək olar. AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva "Talassemiyasız həyat naminə" layihəsi çərçivəsində görülən işlərlə tanışlıq məqsədilə növbəti dəfə paytaxtdakı Talassemiya Mərkəzində olub. Fondun təşəbbüsü ilə yaradılan Talassemiya Mərkəzinin əsas məqsədi ixtisaslaşdırılmış tibb ocağının və qan bankının təşkili, yüksək ixtisaslı kadrların hazırlanması, talassemiyadan əziyyət çəkən uşaqların təhlükəsiz və keyfiyyətli qan komponentləri ilə təmin edilməsidir.

Daha sonra 1 saylı Şəhər Kliniki Xəstəxanasında müxtəlif şöbələrdə müalicə alan uşaqlara baş çəkildi, balacaların tezliklə sağalması arzuları ifadə olundu. Qeyd edildi ki, hazırda xəstəxananın uşaq-cərrahiyyə korpusunda 40-a yaxın uşaq müalicə alır.

Tibb müəssisələrində müalicə olunan uşaqlarla növbəti görüş Milli Onkologiya Mərkəzinin Uşaq Klinikasında baş tutdu. Uşaqların müalicəsinin gedişi ilə maraqlanan Leyla Əliyeva Fondun səhiyyə və sosial sahələrlə bağlı məsələləri daim diqqətdə saxladığını bildirdi. Balacalara, həmçinin müxtəlif hədiyyələr təqdim edildi.

səs

www.sesqazeti.az

facebook Ses Media Holding

22 avqust 2019-cu il

# Əli Əhmədov: “Müxalifətin pilotun həlak olmasından siyasi dividend qazanmağa çalışması insanlığa yaraşmayan hərəkətdir”

***Qəzaya uğrayan Hərbi Hava Qüvvələrinin MiQ-29 təyyarəsinin pilotu polkovnik-leytenant Rəşad Atakişiyevin həlak olması bizim hamımızı kədərləndirir. Ordumuz üçün gərəkli olan bir hərbçinin həlak olması faciədir. Ancaq müxalifətin bundan hansısa siyasi məqsədlər üçün istifadə etməsi qətiyyətlə yolverilməzdir.***



Bunu Trend-ə Baş nazirin müavini, Yeni Azərbaycan Partiyasının Sədr müavini - İcra katibi Əli Əhmədov deyib.

Ə.Əhmədov bildirib ki, bu, hər şeydən əvvəl bir ailənin faciəsidir: “Ondan kiminsə siyasi məqsədlə istifadə etməyə çalışması insanlığa yaraşmayan hərəkətdir. Müxalifət bu hadisədən özü üçün dividend qazanmaq istəyirsə, mən bunu insan ləyaqətinə sığmayan hərəkət hesab edirəm. Digər tərəfdən isə bu formada ucuz təbliğat aparmaq heç bir siyasi təşkilata başucalığı gətirməz.

Mərhumun ailəsi bu faciədən siyasi məqsədlə istifadə edilməsini aydın şəkildə dərk edir. Hətta məcbur qalaraq müraciət yayıb ki, siyasi dividend məqsədilə buraya heç kim gəlməsin. Bu bəyanatın özü də ailə üçün çox ağırdır. Təsəvvür edin ki, ailə hansı vəziyyətdə belə bir bəyanatı səsləndirməyə məcbur olub”.

Baş nazirin müavini vurğulayıb ki, radikal müxalifət insanların qəlbində nifrət hissi yaradan davranışlara yol verir və bununla özlərinə hörmət qazanmaq istəyir: “Siyasətçi hörməti bu yolla qazanmaz. Siyasətlə məşğul olan insan, hər şeydən əvvəl elə olmalıdır ki, xalq ona inanmış olsun. Özünü bu cür vətənpərvər göstərməyə çalışmaqla hörmət qazanmaq mümkün deyil. Çünki hər kəs bilir ki, bu, tamamilə riyakarlıqdır, qeyri-səmimi bir hərəkətdir və bununla siyasi nüfuz qazanmaq, siyasi dividendlər əldə etmək mümkün deyil. Mən bunu qətiyyətlə pisləyirəm. Bu, birinci hal deyil ki, müxalifət ucuz vasitələrlə özünə hörmət qazanmağa çalışır. Ancaq məsələ o həddə çatıb ki, bir ailə müraciət edir: “mənim yasımı, kədərimi siyasiləşdirməyin”.

Qeyd edək ki, həlak olan pilot Rəşad Atakişiyevin yaxını Qabil Hüseynli vida mərasimindən müxtəlif siyasi məqsədlər üçün istifadə etmək arzusunda olan şəxslərə müraciət ünvanlayıb:

“Ailəmiz çox çətin, ağır və kövrək bir dönəmdən keçir. Xalqımızın sevimlisi, rəşadətli pilotumuz Rəşad Atakişiyevi itirmişik. Mərhumun dəfni ilə bağlı həyata keçirilən vida mərasiminə dövlət öz dəstəyini göstərir. Müəyyən siyasi partiyaların və qrupların tədbirə qatılmaq və mərasim vasitəsilə siyasi dividend əldə etmək istəkləri barədə məlumatlar əldə etmişik. Həmin şəxslərdən artıq dərəcədə xahiş edirik ki, vida mərasiminə qatılmasınlar, bu ağır günümüzdə bizi başa düşsünlər”.

# Xoşbəxt Yusifzadə: Yeni yataqlarımızın uğurla işlənilməsi neft gəlirlərinin qaz gəlirləri ilə balanslaşdırılması üçün şərait yaradır



“Yeni yataqlarımızın uğurla işlənilməsi ölkəmizdə qaz hasilatının artırılması və gələcəkdə neft gəlirlərinin müəyyən dərəcədə qaz gəlirləri ilə balanslaşdırılması üçün şərait yaradır”. Bu fikri SOCAR-ın birinci vitse-prezidenti, akademik Xoşbəxt Yusifzadə deyib.

X.Yusifzadə bildirib ki, dünyanın ən qədim neft sənayesinin beşiyi başında durmuş Azərbaycanda zəngin və peşəkar neftçi ənənələri formalaşıb. Lakin digər tərəfdən dünyanın ən qədim və uzun müddət ərzində istismar olunan yataqlarının məhz bizim ölkəmizdə olması qarşımızda çağırışlar yaradır. Bu baxımdan qarşıdakı dövrdə əsas hədəfimiz bütün vasitələrlə köhnələn yataqların ömrünü uzatmaqdır. Digər tərəfdən yeni yataqlarımızın uğurla işlənilməsi ölkəmizdə qaz hasilatının artırılması və gələcəkdə neft gəlirlərinin müəyyən dərəcədə qaz gəlirləri ilə balanslaşdırılması üçün şərait yaradır.

“ 2019-cu ilin sonuna qədər ölkə üzrə ümumi qaz hasilatında 20% artım gözlənilir: “Növbəti illərdə də ölkədə qaz hasilatı yüksələn xətt üzrə inkişaf edəcəkdir. Bu müsbət trend qarşımızda həm də qaz emalı və kimya sənayesinin inkişafı üçün yeni imkanlar açır”-deyə, akademik vurğulayıb.

## “MiQ-29” təyyarəsinin pilotu Rəşad Atakişiyev dəfn edilib





Qəzaya uğrayan Hərbi Hava Qüvvələrinin “MiQ-29” təyyarəsinin pilotu, polkovnik-leytenant Rəşad Atakişiyev dəfn edilib. AZƏRTAC xəbər verir ki, Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində təşkil olunan vida mərasimindən sonra pilot ikinci Fəxri xiyabanda torpağa tapşırılıb.

# Ermənistanda etirazların miqyası genişlənir!



Ermənistanda etirazların miqyası genişlənir. İşğalçı ölkənin şərqində yerləşən Cermuxda sakinlər yolları bağlayıblar.

AZƏRTAC erməni KİV-lərinə istinadla xəbər verir ki, Cermuxda etiraz aksiyası keçirən əhali parlament qarşısında polis tərəfindən saxlanılanların azadlığa buraxılmalarını tələb edib. Narazı kütlə bildirib ki, Ermənistanda mədən işlərinin fəaliyyəti ilə məşğul olan xarici şirkətlər ölkəni tərk etsinlər. Onların fikrincə, bu şirkətlərdə çalışanların hüquqları pozulur. Bundan başqa ərazidəki dağ-mədən ərazilərində aparılan iş zamanı partlayışların olması nəticəsində yaşayış sahələrində yeraltı təkanlar baş verir. Bunun nəticəsində əksər yaşayış yerlərində torpaq sürüşmələri qeydə alınıb.

Etirazçılar bildirib ki, dəfələrlə problemlə bağlı rayon icra hakimiyyətinin başçısı Vardan Ovanesyana şikayət olunsa da icra başçısı məsələnin həll olunması üçün onun heç bir səlahiyyətinin olmadığını qeyd edib.

Etirazçılar, eyni zamanda, məmur özbaşınalığından da narazılıq edirlər. Aksiya iştirakçıları ötən gün polisin parlament qarşısında etiraz edənlərə işgəncə verdiyini vurğulayırlar. Hətta onlar qadınlara belə vəhşilik etməkdən çəkinmirlər. Etirazçılar bildirirlər ki, 1 il əvvəl vətəndaşlara müxtəlif vədlər verməklə hakimiyyətə gələn Nikol Paşinyan özü belə problemlərin öhdəsindən gəlməkdə acizdir. Ermənistan özünün ən ağır, acınacaqlı günlərini yaşayır. Aksiya iştirakçıları bəyan edir ki, hökumət səslənən tələbləri həll etməsə, daha kəskin etiraz aksiyaları ilə üzləşəcək.

## MDB Dövlət Başçıları Şurasının iclası oktyabrda Aşqabadda keçiriləcək

MDB Dövlət Başçıları Şurasının iclasının cari il oktyabrın 11-də Aşqabadda keçirilməsi planlaşdırılır. Türkmənistan Xarici İşlər Nazirliyində MDB İcraiyyə Komitəsi sədrinin müavini Sergey İvanov ilə görüş keçirilib. Görüşdə bu il Türkmənistanın MDB-yə sədrliyi çərçivəsində keçiriləcək tədbirlərə hazırlıq məsələləri müzakirə edilib. Qeyd edək ki, Türkmənistanın sədrliyi dövründə MDB ilə beynəlxalq təşkilatlar arasında əlaqələrin səviyyəsinin yüksəldilməsi, ticari-iqtisadi əməkdaşlığın və dünya iqtisadi münasibətlərin genişləndirilməsi məsələləri prioritet kimi müəyyənləşdirilib.

# Siyavuş Novruzov: Azərbaycanın beynəlxalq əhəmiyyətli tədbirlər üçün ideal məkan seçilməsində Mehriban xanım Əliyevanın xidmətləri böyükdür



*Siyavuş Novruzov,*
*Yeni Azərbaycan Partiyası İcra katibinin müavini, Milli Məclisin İctimai birliklər və dini qurumlarla iş komitəsinin sədri*

### Mehriban xanım Əliyeva: Gündəlik fəaliyyətimizdə insanseverlik, mərhəmət, qarşılıqlı hörmət, mehribançılıq unudulmamalıdır

Bütün fəaliyyətini bu prinsiplər əsasında quran Azərbaycanın Birinci Vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, YAP-ın Sədr müavini, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfirinin gördüyü işlər beynəlxalq səviyyədə yüksək dəyərləndirilir

“Mənə göstərdiyiniz yüksək etimada görə Sizə dərin minnətdarlığımı bildirirəm. Bu vəzifəyə təyin olunmaqla öhdəmə düşən məsuliyyətin ciddiliyini tam şəkildə dərk edirəm və inanıram ki, cənab Prezident, Sizin və mənə inanan bütün insanların etimadını doğrultmağı bacaracağam.” Mehriban xanım Əliyeva bu fikirləri dövlətimizin başçısı İlham Əliyevin Sərəncamı ilə Azərbaycanın Birinci Vitse-prezidenti təyin edildikdən sonra Təhlükəsizlik Şurasının keçirilən iclasında bildirmişdir. Mehriban xanım Əliyevanın çoxşaxəli fəaliyyəti onun bu təyinatını şərtləndirdi. Möhtərəm Prezidentimiz İlham Əliyev həmin iclasda bu fikirləri bildirmişdir: “Bax, bu, çoxşaxəli fəaliyyət və eyni zamanda, uğurlu fəaliyyət mənim bu qərarı qəbul etməyimdə əsas rol oynamışdır. Eyni zamanda, qeyd etməliyəm ki, Mehriban Əliyeva çox peşəkar, bilikli, təcrübəli, prinsipial, çox xeyirxah bir insandır. Təsadüfi deyil ki, Azərbaycan xalqı ona böyük rəğbət və sevgi ilə yanaşır. Sadaladığım bütün bu amilləri nəzərə alaraq, mən bu qərara gəldim və bu gün Mehribanın həyatında yeni dövr başlayır. Əminəm ki, o, bundan sonra da ölkəmizin inkişafına öz dəyərli töhfəsini verəcəkdir.”

Azərbaycan Respublikasının Birici Vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, YAP-ın Sədr müavini, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın təhsilin, səhiyyənin, mədəniyyətin, idmanın inkişafı, həqiqətlərimizin təbliği, milli-mənəvi dəyərlərimizin qorunması, dünya xalqlarının mədəniyyətinə inteqrasiyası istiqamətində gördüyü işlərin miqyası o qədər genişdir ki, onları bi yazıda əhatə etmək qeyri-mümkündür. Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu missiyasına uyğun olaraq müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, ulu öndər Heydər Əliyevin irsinin öyrənilməsi və təbliği istiqamətində gördüyü işləri, həmçinin ictimai-siyasi fəaliyyətini də nəzərə alsaq onun dövlətimiz və xalqımız qarşısında xidmətlərinin ölçüyə gəlməz dərəcədə böyük olduğunu bir daha görərik. Ölkə daxilində və dünya arenasında həyata keçirdiyi layihələrin əhəmiyyətini nəzərə alan ölkə Prezidenti İlham Əliyev Mehriban xanım Əliyevanı Vətənimizin ən ali mükafatı - “Heydər Əliyev mükafatı” ilə təltif edərkən bildirmişdir ki, Fondun bütün təşəbbüsləri milli ruha əsaslanır: “Modernləşmə, müasirləşmə, dünya birliyinə inteqrasiya, Azərbaycanın milli maraqlarının müdafiə edilməsi, Azərbaycannın olduğu kimi dünyaya təqdim edilməsi-bütün bu şərəfli funksiyalar bu Fondun üzərinə düşür.”

İllər keçdikcə görülən işlərin miqyası daha aydın görünür. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, YAP-ın Sədr müavini, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın hər kəsə gələcəyi ilə bağlı düzgün seçim etməsinə yardımçı olan müsahibələrinin birində “İnsanlarda hansı keyfiyyətlərə qiymət verirsiniz” sualına cavabını xatırlatmaqla bugünkü uğurlarına yol açan ümumiləşdirməni aparmış olarıq. Mehriban xanım Əliyeva həmin suala cavabında bildirmişdir: “Saflığı və mənliyi, səmimiliyi və xeyirxahlığı, ağlı və peşəkarlığı. Heç bir ifadədə süniliyi qəbul etmirəm. Təəssüf ki, mənim həyat quruluşu çox şeyi yox edir, insana yeni-yeni bilik, bacarıq, imkan verərək, bəzən onun mənəvi tamlığını tapdalayır. Uğurun, firavanlığın arxasınca qaçmaq, bunlara nəyin bahasına olursa olsun, nail olmaq istəyi insanları tanınmaz dərəcədə dəyişir, bu da məyusluq gətirir. Düzdür illər ötdükcə mən insanların zəifliklərinə və bir çox şeylərə daha dözümlü yanaşmağa başlamışam. Lakin özüm üçün yolverilməz saydığım şeylərə görə, başqalarını da bağışlaya bilmərəm. Xoşbəxtlikdən məni həm ailəmdə, həm də peşəkar fəaliyyətimdə yalnız parlaq, pozitiv, səmimi və xeyirxah insanlar əhatə edir. Onlarla ünsiyyət həmişə sevinc gətirir.”

### Azərbaycanın beynəlxalq əhəmiyyətli tədbirlər üçün ideal məkan seçilməsində Mehriban xanım Əliyevanın xidmətləri böyükdür

Mehriban xanım Əliyevanın gördüyü işlər təkcə ölkəmizdə deyil, dünya miqyasında təqdir olunur. Ayrı-ayrı dövlətlər, beynəlxalq təşkilatlar tərəfindən müxtəlif mükafatlara layiq görülməsi, eyni zamanda, Azərbaycanın bu və ya digər ölkələrlə, təşkilatlarla əlaqələrinin inkişafına verdiyi töhfələrindən irəli gəlir. Mehriban xanım Əliyeva 2004-cü il avqustun 13-də Azərbaycanın şifahi xalq ədəbiyyatının və musiqi irsinin qorunub saxlanılması və inkişaf etdirilməsi sahəsindəki fəaliyyətinə görə YUNESKO-nun xoşməramlı səfiri adına, 2005-ci il iyunun 9-da ictimai, messenatlıq və xeyriyyəçilik fəaliyyətinə, həmçinin, təhsil və mədəniyyət müəssisələrinin dəstəklənməsinə, Rusiya və Azərbaycan xalqları arasında dostluğun möhkəmlənməsinə sanballı töhfələrinə görə Rusiyanın “Yüzilliyin messenatları” Beynəlxalq Xeyriyyə Fondunun “Yaqut Xaç” ordeninə, sivilizasiyalararası dialoq daxil olmaqla, müxtəlif sahələrdə genişmiqyaslı və fədakar fəaliyyətinə, qayğıya ehtiyacı olan uşaqlara diqqətinə, onların yaşayış şəraitinin yaxşılaşmasına, təhsilə, həmçinin, İslam aləmində görülən işlərə böyük dəstəyinə görə 2006-cı il noyabrın 24-də İSESKO-nun xoşməramlı səfiri adına, 2007-ci ildə bəşəriyyətin ali ideyalarına xidmətdə qazandığı görkəmli nailiyyətlərə görə “Qızıl ürək” beynəlxalq mükafatına, 2009-cu ildə Azərbaycanın ictimai-siyasi və mədəni həyatında səmərəli fəaliyyətinə görə “Heydər Əliyev Mükafatı”na, həmçinin, iki mötəbər mükafata - Fransa dövlətinin “Şərəf Legionu” ordeninə və YUNESKO-nun “Qızıl Motsart” medalına, eyni zamanda, Krans Montana Forumunun Qızıl medalına, Polşa Respublikasının “Xidmətlərə görə” Böyük Komandor Xaçı ordeninə, İslam mədəni irsinin dünyada geniş təbliği, Azərbaycanda və ölkə hüdudları xaricində nəcib xeyriyyə fəaliyyəti, təhsilə, tibbə verdiyi böyük töhfələrə görə Küveyt Dövlətinin Fəxri diplomuna, Azərbaycanda “Heydər Əliyev” ordeninə, Rusiyada Müqəddəs Mələksima Knyaginya Olqa ordeninə, İtaliyanın “Xidmətlərinə görə” Böyük Xaç Kavaleri ordeninə layiq görülüb. Mehriban xanım Əliyeva, həmçinin bu günlərdə Azərbaycan-Rusiya münasibətlərinin inkişaf etdirilməsi və möhkəmləndirilməsindəki xidmətlərinə görə rusiya Prezidenti Vladimir Putinin Fərmanı ilə Rusiya Federasiyasının “Dostluq” ordeni ilə təltif olunub.

Göründüyü kimi, təltiflərinin hər biri Mehriban xanım Əliyevanın çoxşaxəli fəaliyyətinin ayrı-ayrı istiqamətlərinə bələdçilik edir.

### Xeyriyyəçilik, humanizm Mehriban xanım Əliyevanın fəaliyyətinin əsasını təşkil edir

Qayğı, mərhəmət, sosial öhdəlik kimi keyfiyyətləri hər kəsin yaddaşına həkk etdirməyə xidmət edən layihələrin müəllifi kimi çıxış etmək Mehriban xanım Əliyevanın fəaliyyətinin əsas istiqamətlərindəndir. Onun timsalında insanlığa sevgini, ehtiyacı olanlara mərhəmət və şəfqəti görürük. Mehriban xanımın bu sahədəki fəaliyyətini təhlil etdikdə bir daha əminliklə deyirik ki, Azərbaycanda müasir xeyriyyəçilik institutunun əsası Mehriban xanım Əliyeva tərəfindən qoyulub. O, atdığı addımları ilə gələcək nəsillərə nəcib bir yolun əsas konturlarını göstərir. Mehriban xanım Əliyeva müsahibələrinin birində bu fikri açıqlayır ki, müasir Azərbaycanda xeyriyyəçilik institutunun inkişaf perspektivləri ilk növbədə, ölkəmizin gələcək iqtisadi inkişafı, sosiomədəni modernləşməsi, vətəndaş cəmiyyətinin möhkəmlənməsi və cəmiyyətimizin mənəvi tərəqqisi ilə bağlıdır.

Təbii cəmiyyətin demokratikləşməsi və humanistləşməsi yolu ilə irəlilədikcə, ölkəmizdə xeyriyyəçiliyin tərəqqisi yolundakı mənəvi-əxlaqi maneələr də aradan qalxacaq. Əlbəttə ki, bu vacib sektorda Mehriban xanım Əliyevanın əsasını qoyduğu ənənənə və nümunəvi fəaliyyət müasir Azərbaycan xeyriyyətçilik institutunun daha da inkişafına yeni imkanlar açır, stimul verir. Onun 2017-ci ildə Azərbaycanın Birinci vitse-prezienti kimi təqdimatı mərasimində söylədiyi bu fikirləri də xatırlatmaq istərdik: “Mən əminəm ki, vəzifədən asılı olmayaraq, insan öz yolunu, peşəsini seçəndə hər hansı bir işinə, əməyinə vicdanla yanaşmalı, qarşısına aydın məqsədlər qoyub, bu məqsədlərə nail olmağa çalışmalı, söz və işlərində bütöv olmalıdır.” Bu prinsiplərə söykənərək uğur səhifələrinin sayını artıran Heydər Əliyev Fondunun fəaliyyətini belə səciyyələndirmişdir: “Rəhbərlik etdiyim Heydər Əliyev Fondu artıq 13 ildir ki, öz fəaliyyətini humanizm prinsipləri əsasında qurub. Biz bu illər ərzində bir çox irimiqyaslı layihələr icra etmişik. Biz Azərbaycanın ictimai və siyasi həyatında fəal iştirak edirik. Biz infrastruktur layihələri icra edirik. Eyni zamanda, biz 13 il ərzində ayrı-ayrı insanların problemlərinə heç zaman biganə qalmamışıq. İnsanlarla ünsiyyətdə olmaq, onları dinləmək və eşitmək, köməyə ehtiyacı olana kömək etmək, mənəvi dəstək vermək Heydər Əliyev Fondunun hər bir əməkdaşının birbaşa vəzifəsidir. Hesab edirəm ki, bu, dövlət qurumlarında çalışan bütün insanların əsas borcu və vəzifəsidir. Gündəlik fəaliyyətimizdə insanseverlik, mərhəmət, qarşılıqlı hörmət, mehribançılıq unudulmamalıdır. Əksinə, məhz bu mənəvi dəyərləri uca tutaraq ən yüksək qələbələr əldə etmək, ən böyük zirvələrə qalxmaq olar.” Bu fikirlər Mehriban xanım Əliyevanın fəaliyyətinin əsasını təşkil edən prinsiplərin ümumiləşdirilmiş ifadəsidir.

İnsan amilinə yüksək dəyər verilən ölkəmizdə Amnistiya aktlarının qəbulunda Mehriban xanım Əliyevanın təşəbbüskar kimi çıxış etməsi ictimaiyyət tərəfindən böyük rəğbətlə qarşılanır. Təbii ki, bu, onun humanistliyindən, mərhəmətindən irəli gələn addımlardır. “Hər bir cəmiyyətdə mərhəmət, insanpərvərlik, qayğı kimi hisslər əsas yer tutmalıdır. O cəmiyyətdə ki həm dövlət qurumları, həm vətəndaş cəmiyyəti məhz bu prinsiplər əsasında həm öz həyatını, həm öz fəaliyyətini qurur, demək olar, o cəmiyyət inkişaf etmiş, uğurlu cəmiyyətdir. Mərhəmət təkcə çətinliyə düşən insanlara yardım əlini uzatmaq deyil. Mərhəmət bəzən çətin və məsuliyyətli qərar qəbul etməyi tələb edir. Bir dəfə səhv etmiş insanların bağışlanmaq hüququ var. Bu gün biz yenidən cəmiyyətdə öz yerlərini tutmaları, layiqli həyat yaşamaları üçün onlara şans verməliyik”” söyləyən, ümummilli lider Heydər Əliyevin ədalət və insanpərvərlik ideyalarını davam və təbliğ etdirən Mehriban Əliyevanın təşəbbüsü ilə həyata keçirilən Amnistiya aktları sayəsində yenidən cəmiyyətə qayıdan insanlar bu xeyirxahlığı humanizm prinsiplərinin qələbəsi kimi dəyərləndirirlər.

### Heydər Əliyev Fondu: Sosial-mədəni, humanitar layihələrin təşəbbüskarı

Mehriban xanım Əliyevanın siyasi xadim kimi fomalaşmasında ulu öndər Heydər Əliyev siyasi məktəbinin rolu inkaredilməzdir. Ulu öndər Heydər Əliyev irsinin təbliği məqsədilə 2004-cü ildən fəaliyyətə başlayan Heydər Əliyev Fondu təhsil, səhiyyə, mədəniyyət, idman, elm və texnologiya, ekologiya, sosial və digər sahələrdə müxtəlif layihələr həyata keçirərək yeni cəmiyyət quruculuğunda fəal iştirak edir, ölkənin sosial-iqtisadi inkişafına öz töhfəsini verir. Yarandığı gündən qarşısına qoyduğu ali məqsədlərin gerçəkləşdirilməsi naminə inamla çalışan, qısa müddətdə strateji əhəmiyyət daşıyan bir sıra layihələri gerçəkləşdirən Heydər Əliyev Fondu 15 ildə cəmiyyətdə xeyirxahlıq ünvanına çevrilib. Fondun fəaliyyəti, eyni zamanda, insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsinin yüksək səviyyədə təminatına yönəlib, qısa müddətdə bu sahədə böyük işlər görülüb.

Ardı Səh. 6

# Siyavuş Novruzov: Azərbaycanın beynəlxalq əhəmiyyətli tədbirlər üçün ideal məkan seçilməsində Mehriban xanım Əliyevanın xidmətləri böyükdür

Əvvəli-Səh-5

Əvvəldə də qeyd etdiyimiz kimi, Heydər Əliyev Fondu Mehriban xanım Əliyevanın rəhbərliyi ilə milli-mənəvi dəyərlərin qorunması və Azərbaycan mədəniyyətinin geniş təbliğ olunması ilə bağlı işlərin aparılmasına kömək edib. Bütün bununla yanaşı, Fond xarici ölkələrdəki unikal mədəniyyət abidələrinin bərpası prosesində də yaxından iştirak edir. Fond Fransada Dünya Mədəni İrs Siyahısına daxil edilmiş Versal sarayını, Parisdə XIV əsrə aid Notr-Dam, Strasburq Kafedral kilsələrinin, İkinci Dünya müharibəsində dağılmış Berlin şəhər Sarayının, həmçinin Vatikan arxivlərində saxlanılan Azərbaycan orta əsrlər əlyazmalarının bərpa olunmasına kömək edib. Heydər Əliyev Fondu ilə Müqəddəs Arxeologiya üzrə Papa Komissiyası arasında imzalanmış Anlaşma Memorandumuna əsasən, Fond Romanın Kapitoli Muzeyində bərpa işlərinin həyata keçirilməsinə də dəstək verib.

Təkcə bu faktı qeyd etmək kifayətdir ki, Mehriban xanım Əliyevanın milli-mənəvi dəyərlərimizin, mədəniyyətimizin, tariximizin qorunması istiqamətində xidmətlərinin miqyasını aydın şəkildə görək və dəyərləndirək. Azərbaycan bu il YUNESKO-nun İrs Komitəsinin 43-cü sessiyasına ev sahibliyi etdi. Bu mühüm tədbir, eyni zamanda, Mehriban xanım Əliyevanın Azərbaycan-YUNESKO əməkdaşlığına verdiyi töhfələrə işıq saldı. Onun səyləri nəticəsində Azərbaycanın maddi və qeyri-maddi mədəni irs nümunələri YUNESKO-nun müvafiq siyahılarında yer alıb. Muğam sənətinin, aşıq sənətinin, Novruz bayramının, İçərişəhərin, tar ifaçılığı sənətinin YUNESKO-nun nadir, şah əsərləri sırasına daxil edilməsi Azərbaycanla bu təşkilat arasında əməkdaşlığın yüksək səviyyədə olduğunu təsdiqləyir. YUNESKO-nun İrs Komitəsinin 43-cü sessiyasında Xan Sarayı ilə birgə Şəkinin tarixi mərkəzinin qurumun Ümumdünya İrs Siyahısına daxil edilməsi də uğurlarımız sırasındadır.

Fondun təşəbbüsü ilə həyata keçirilən layihələr sırasında dövlət qurumlarının və vətəndaş cəmiyyətinin bəzi strukturlarının da dəstəklədiyi "Yeniləşən Azərbaycana yeni məktəb" layihəsi çərçivəsində Azərbaycanın müxtəlif regionlarında 300-dən çox yeni məktəb binasının inşa olunub və lazımi avadanlıqlarla təchiz edilməsini xüsusi qeyd etməliyik. Məktəblərin kompyuterləşdirilməsi əsas tələb kimi ortaya qoyulub. Bu günümüzün əsas çağırışı "hər uşağa bir kompyuter"dir. Heydər Əliyev Fondunun təhsillə bağlı layihələri də vətəndaşların təhsil hüquqlarının daha etibarlı təminatı məqsədinə xidmət edir. Bunun üçün ölkədə müasir tipli yeni məktəblərin inşasının, tədris prosesinə normal şərait yaradılmasının zəruriliyini düzgün qiymətləndirən Fond qarşıya qoyduğu strateji hədəflərə doğru inamla addımlayır, uğurlu nəticələr əldə edir. Fondun təhsillə bağlı layihələri sırf Azərbaycanla məhdudlaşmır. Belə ki, 2007-ci ildə Hollandiyanın paytaxtı Amsterdamda fəaliyyətə başlayan Azərbaycan məktəbi Heydər Əliyev Fondunun diqqətindən kənarda qalmayıb, məktəbə kompüter dəsti və dərs vəsaitləri göndərilib. 2008-ci ilin fevralında isə Fondun "Təhsilə dəstək" layihəsi çərçivəsində Pakistanın Müzəffərabad şəhərində dağıdıcı zəlzələ nəticəsində yararsız vəziyyətə düşən məktəb yenidən tikilərək, yüksək səviyyəli tədrisə imkan yaradan avadanlıqlarla təmin olunub. Eyni zamanda, Azərbaycanın birinci xanımının təşəbbüsü ilə Rusiyada, Gürcüstanda, Misirdə yeni məktəb binaları tikilərək istifadəyə verilib.

Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın bilavasitə təşkilatçılığı ilə həyata keçirilən layihələrin əsasında uşaqlara qayğı da xüsusi yer tutur. Uşaq evlərinin və internat məktəblərinin ən müasir səviyyədə təşkilinə diqqəti artıran Mehriban xanım Əliyeva körpələrin fiziki və əqli cəhətdən sağlam böyüməsi üçün əlindən gələni əsirgəmir. "Diabetli uşaqlara ən yüksək qayğı" layihəsi çərçivəsində Azərbaycanda diabet xəstəliyinə düçar olmuş uşaqlar müntəzəm olaraq lazımi miqdarda insulin preparatları və digər dərmanlarla təmin edilmişdir. Bakıda talassemiyalı xəstələr, uşaqlar üçün Mərkəzin, tələbatı ödəyəcək qədər Qan Bankın yaradılması gələcək nəslin sağlamlığı üçün ən böyük töhfədir. "Talassemiyasız həyat naminə" layihəsi çərçivəsində görülən işlər də deyilənlərin təsdiqidir. Heydər Əliyev Fondu ürək xəstəliklərindən əziyyət çəkən körpələrin bir qisminə xarici ölkələrdə cərrahiyyə əməliyyatı aparılmasına köməklik göstərib. Valideyn hamayəsindən məhrum olan bütün uşaqları doğma övladı kimi sevən, qayğısını əsirgəməyən "Hər uşağın ailəyə ehtiyacı var" söyləyən Mehriban xanım Əliyevanın qeyd etdiyi kimi, heç bir internat, uşaq evi - ən müasir, bütün tələblərə cavab versə belə- heç vaxt ailə mühitini, ailə tərbiyəsini əhatə edə bilməz.



Təbii ki, bunlar Heydər Əliyev Fondunun xidmətlərinin sadəcə az bir hissəsidir. Mehriban xanım Əliyeva bir tərəfdən humanizm, mərhəmət, xeyriyyəçilik və qayğıkeşliyi özündə ehtiva edir, digər tərəfdən Heydər Əliyev Fondunun prezidenti kimi elm, ədəbiyyat, mədəniyyət, təhsil, səhiyyə və digər sahələrdə həyata keçirilən yüzlərlə dəyərli layihənin, mədəni irsimizin qorunması və beynəlxalq arenada təbliği proqramlarının müəllifidir.

### Azərbaycan həqiqətlərinin təbliğində Heydər Əliyev Fondunun rolu böyükdür

Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı həqiqətlərin beynəlxalq aləmə çatdırılması üçün bütün mövcud imkanlardan istifadə edir. Ermənilərin iç üzünün dünyaya çatırılması üçün müxtəlif dillərdə nəşr olunan kitablar, ingilis, fransız, ərəb, alman, rus dillərində "Qarabağ həqiqətləri" bukletlər Fondun bu sahədəki fəaliyyətinin əyani vəsaitləridir.

Heydər Əliyev Fondu Azərbaycan həqiqətlərini və Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin mahiyyətini beynəlxalq ictimaiyyətə çatdırmaq üçün dünyanın aparıcı dövlətlərinin paytaxtlarında və böyük şəhərlərində dünya ictimaiyyətinin diqqətini çəkən, həmin ölkələrin siyasi, mədəni, elmi elitasını bir araya toplayan tədbirlərə də imza atıb. Məhz, Moskvada, Berlində, Strasburqda, Buxarestdə, Cenevrədə, Ankarada, İstanbulda, Parisdə, Vaşinqtonda, Nyu Yorkda, Varşavada, Londonda, Dubayda, Haaqada, Kiyev və Tbilisidə Xocalı soyqırımının ildönümünə həsr olunmuş aksiyaların keçirilməsi, xarici ölkələrdə Fondun hazırladığı "Xocalı soyqırımı" filmi ilə yanaşı, insanlığa qarşı törədilən cinayəti əks etdirən müxtəlif ekspozisiyalar nümayiş olunması, Fondun dəstəyi və təşkilatçılığı ilə məktəblilər arasında keçirilən "Xocalı uşaqların gözü ilə" rəsm müsabiqəsinin, əl işlərinin, fotoşəkillərin dünyanın qabaqcıl ölkələrində keçirilən sərgilərdə nümayiş etdirilməsi, Fondun nəşr etdirdiyi "Qarabağ həqiqətləri" toplusu və "Azərbaycana qarşı müharibə: Mədəni irsin hədəfə alınması" kitablarının dünya ölkələrində paylanması beynəlxalq ictimaiyyətdə Azərbaycan həqiqətləri barədə dolğun təsəvvürün formalaşdırılması işinə xidmət edir, töhfələrini verir.

Mehriban xanım Əliyevanın yüksək təşkilatçılığı ilə keçirilən beynəlxalq səviyyəli tədbirlər də həqiqətlərimizin təbliğinə böyük töhfədir. Belə ki, Azərbaycanın ev sahibliyi etdiyi "Euvrovision" mahnı yarışmasının, həmçinin ilk Avropa Oyunları və IV İslam Həmrəyliyi Oyunlarının dünyaya səs salan təqdimatları deyilənlərin bariz nümunəsidir. İlk Avropa Oyunlarının açılış mərasimini xatırlasaq, bu tədbirin Azərbaycanın dövlət müstəqilliyini yenidən bərpa etməsinin 24-cü ilinə təsadüf etməsi ritmik nağara sədaları altında 24-dən sıfıra doğru geriyə sayımın başlamasında öz ifadəsini tapmışdır. 24 illik yolun, yerləşdiyi coğrafi məkanın Azərbaycana qazandırdığı uğurlar müxtəlif təqdimatlarla ölkə və dünya ictimaiyyətinə çatdırıldı. Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva açılış mərasimində çıxış etmişdir: "Bu möhtəşəm bayram müstəqil Azərbaycanın, hər bir Azərbaycan vətəndaşının qələbəsidir. Müstəqillik illərində əldə etdiyimiz uğurlar və nailiyyətlər nəticəsində bu gün burada, gözəl Bakıda Avropa Olimpiya hərəkatının tarixində yeni səhifə yazılır. Bu səhifəni biz yazırıq, Azərbaycan xalqı yazır. Qoy, Tanrı Azərbaycanı hər zaman qorusun!"

"Azərbaycan zəngin tarixə, mədəniyyətə və adət-ənənələrə malik olan ölkədir. Multikulturalizm və tolerantlıq, dostluq və qonaqpərvərlik, ahəngdarlıq və həmrəylik Azərbaycanın həyat tərzinin ayrılmaz hissəsidir" söyləyən Mehriban xanım Əliyeva bildirmişdir ki, bu tədbir Azərbaycanın mədəniyyətlərarası dialoqun inkişafında oynadığı rolu nümayiş etdirir: "Müstəqil dövlət kimi biz gəncik. Cəmi 24 yaşımız var. Yaşımız bu axşamkı mərasimdə geriyə saymağın məhz həmin rəqəmdən başlanılması ilə üst-üstə düşür. Son 24 il ərzində ölkəmizdə sürətli inkişaf, irəliləyiş və müasirləşmə müşahidə olunub. Azərbaycanın iqtisadi sabitliyi və davamlı inkişafı bizə bu cür böyük idman tədbirini keçirmək imkanı yaradır. Mehriban xanım bu əminliyi də ifadə etmişdir ki, gələn illərdə Avropa Oyunlarının məşəli nə qədər uzaqlarda alovlansa da, Azərbaycanın və "Bakı-2015"-in parlaq ruhunun atəşi orada olacaq.

Mehriban xanım Əliyevanın yüksək təşkilatçılığı ilə keçirilən IV İslam Həmrəyliyi Oyunları da Azərbaycanın malik olduğu imkanların, ən əsası tolerantlıq, multikulturalizm təcrübələrinin təqdimatıda əhəmiyyətli rol oynadı. Azərbaycandan dünyaya sülh, əmin-amanlıq, birlik, həmrəylik mesajı ünvanlandı. Qərblə Şərq arasında körpü rolunu oynayan, sivilizasiyalararası dialoq məkanı sayılan, böyük nüfuz qazanan, hazırda dünyanın ən sabit, geosiyasi əhəmiyyəti ilə fərqlənən Azərbaycan mədəniyyətlərin qovuşduğu ölkə kimi bir daha mövqeyini möhkəmləndirdi.

### Vətən, torpaq, xalq sevgisinin vəhdəti

Azərbaycanın Birinci Vitse-prezidenti Mehriban xanım Əliyevanın ictimai-siyasi fəaliyyəti də nümunədir. 1992-ci ildən ölkənin ictimai-siyasi həyatında aparıcı rol oynayan, ulu öndər Heydər Əliyevin yaradıcısı olduğu Yeni Azərbaycan Partiyasının fəal üzvü olub və bu gün partiyanın Sədr müavini kimi müasir müstəqil Azərbaycanın davamlı inkişafına töhfələr verir.

Mehriban xanım Əliyeva 2005-ci ildən Azərbaycan Respublikası Milli Məclisinin deputatı olub. O, deputat kimi fəaliyyət göstərdiyi müddətlərdə çox böyük işlər görüb, təmsil etdiyi rayonun sosial-iqtisadi problemlərinin həlli istiqamətində mühüm addımlar ataraq, seçicilərinin yüksək etimadını qazanıb. Mehriban xanım bu missiyasını da yerinə yetirərkən məsuliyyətin önəmini əməli fəaliyyəti ilə təsdiqləyib.

Mehriban xanım Əliyevanın bütün mükafatları sırasında öndə dayanan xalq sevgisi, məhəbbəti onun Azərbaycanın Birinci Vitse-prezidenti kimi təyinatında da xüsusi rol oynadı. Daim insanların arasında olan, onların qayğıları ilə maraqlanan Mehriban xanım Əliyeva özü haqqında yaratdığı portretdə səmimilik kimi keyfiyyətə də xüsusi yer ayırdı.

Mehriban xanım Əliyevanın Azərbaycan Respublikasının Birinci vitse-prezidenti təyin olunmasını şərtləndirən amillər sırasında böyük idarəçilik təcrübəsi və xalqının sevgisini qazanması ilə yanaşı, həm də ölkə Prezidenti İlham Əliyevin ən yaxın silahdaşı, yardımçısı, mənəvi dəstəkçisi olmasıdır. Mehriban xanım Azərbaycanın Birinci Vitse-prezidenti kimi təqdimatı mərasimində bildirmişdir: "Mənim fəaliyyətim haqqında dediyiniz sözlərə, verdiyiniz qiymətlərə görə Sizə dərin təşəkkürümü bildirirəm. Mənim üçün belə bir qiymətə layiq olmaq böyük şərəfdir. Sadaladığınız hər bir uğurun, hər bir nailiyyətin arxasında Sizin köməyiniz, Sizin dəstəyiniz durur." Məhz bu birlik fonunda Azərbaycan davamlı uğurlara imza atır, ən yüksək zirvələri fəth edir.

Azərbaycanın Birinci Vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, YAP-ın Sədr müavini, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevaya çoxşaxəli fəaliyyətində uğurlar arzulayıram.

# Cəmil Həsənli, dəfn mərasimi üzərindən siyasi manipulyasiya hansı etik və əxlaqi çərçivəyə sığar?

İyulun 24-də plana uyğun olaraq gecə vaxtı təlim-məşq uçuşları keçirən zaman qəzaya uğrayan Hərbi Hava Qüvvələrinin "MiQ-29" təyyarəsinin pilotu, polkovnik-leytenant Atakişiyev Rəşad Saləddin oğlunun nəşi və təyyarənin qalıqları 20.08.2019-cu il tarixində tapılaraq dənizdən çıxarılıb. 21.08.2019-cu il tarixində isə Silahlı Qüvvələrin Təlim-Tədris Mərkəzində hərbi pilotla vida mərasimi keçirilib. Yas sahiblərinin, o cümlədən mərhumun yaxını Qabil Hüseyinlinin müxalifətin bu mərasimdə görmək istəməməsi çağırışını radikallar normal qarşılamayıblar. Xatırladaq ki, ötən 27 gün ərzində başda Əli Kərimli olmaqla Cəmil Həsənli, Sevinc Osmanqızı, Qənimət Zahid və radikal müxalifət düşərgəsinin "kərkəzləri" pilotumuzun qəzaya uğramasını insanların hiss və həyəcanlarını nəzərə almadan "siyasi şou"ya çevirməyə, bu mövzudan siyasi divident qazanmağa və hakimiyyətə qarşı ictimai rəy formalaşdırmağa cəhd göstərdilər.



Bəhruz Quliyev,
"SƏS" qəzetinin baş redaktoru

"5-ci kolon"un iri və xırdabuynuzlu trolları olan Natiq Ədilov, Məhəmməd Mirzəli, İlham Hüseyn, Bəxtiyar Hacıyev və digərləri də onlardan geri qalmayaraq şəhidin yaxınlarının ünvanına nalayiq ifadələr işlətməyə başladılar.

Qrant, pul, hakimiyyət hərisliyi bu trolların gözünü o qədər örtüb ki, onlar həlak olmuş pilotumuzun yaxın qohumu Qabil Hüseynlinin çağırışına nəinki əks-reaksiya verdilər, hətta onun özünü belə təhqir etməkdən çəkinmədilər. Anlamırlar ki, insanların yas mərasimini siyasi aksiyaya çevirmək, bundan siyasi məqsədlər üçün yararlanmaq nə dinimizə, nə də əxlaq normalarımıza uyğundur. Müxalifətin bütün məsələlərdən, hətta qəhrəman hərbçilərimizin dəfn mərasimindən yararlanmaq cəhdi insanlığa sığmayan hərəkət, vəfat edənin ruhuna hörmətsizlikdir. Belə məqamların üzərində oyun qurmaq cılızlıqla yanaşı, siyasi mübarizədə naşılıqdır.

Özünü radikal müxalifət düşərgəsinin "ağsaqqalı" kimi təsəvvür edən Milli Şura sədri Cəmil Həsənli daha irəli gedərək pilotumuzun yaxınlarına həqarət etməklə yanaşı, hakimiyyətin də ünvanına qarayaxma aparmağa çalışır. Özünü tarixçi-professor hesab edən Cəmil Həsənli tarixi hərdən vərəqləsin və baxsın ki, bu günə qədər hansı ölkədə müxalifət cəmiyyətin bir parçası olan, müqəddəs dəyəri hesab edilən orduya qarşı çirkin kampaniya aparıblar? Hansı sistem daxilində müxalifət baş verən ən xırda insidentə görə belə hakimiyyəti ittiham edib? Cəmil Həsənlinin göstərə biləcəyi belə bir misal yoxdur. Lakin Cəmil Həsənlinin də daxil olduğu Azərbaycan dövlətinə və xalqına qarşı barışmaz mövqe tutmuş "5-ci kolon" haqqında kifayət qədər faktlar mövcuddur. Hətta, istər hitlerçi, istər mussoliniçi, istərsə də frankoçu faşistlər heç zaman dövlətçiliklərinə qarşı çıxış etməyiblər. Amma Cəmil Həsənlinin də daxil olduğu "5-ci kolon" Azərbaycan dövlətçiliyinin zərbə altına salınmasında nəinki maraqlıdır, hətta bu xidmətlərinə görə maddi maraqlarını belə təmin edirlər.

Əslində, təəccüblənəsi bir məsələ də yoxdur ortada. Vaxtilə AXC-Müsavat hakimiyyəti dövründə dövlət katibi olmuş Əli Kərimli kimilər Qarabağda gedən ağır döyüşlərdə düşmən qarşısında sipər olmuş oğul və qızlarımıza məzarda yatarkən belə şər atırdısa, bu gün onun rəhbərlik etdiyi AXCP və idarə etdiyi Milli Şuranın ordumuza ləkə atması heç də təəccüblü görünmür. Başqa bir xatırlama: 2016-cı ilin aprel hadisələrində xalq tarixi qələbəni qeyd etdiyi bir vaxtda Əli Kərimli bizim ordumuzu ittiham edirdi. Və o vaxt şəhidlərin yas mərasimini də özünün piarına çevirən Ə.Kərimli, bu mərasimlərdən maksimum bəhrələndi. Bu gün də həlak olmuş hərbiçinin yas törənini özünün təbliğatına çevirmək istəyən Ə.Kərimlinin çirkin niyyəti və hakimiyyət hərisliyi o həddə çatıb ki, xalqımızın əxlaqi, mənəvi dəyərlərini ayaq altına atılıb.

Sadəcə olaraq, Əli Kərimli, Cəmil Həsənli kimilər üçün milli-mənəvi dəyərlərin, insanların hiss və həyəcanlarının, düşüncələrinin heç bir əhəmiyyəti yoxdur. Ona görə də, Əli Kərimliyə, Cəmil Həsənliyə sual edirik ki, hərbçilərimizin şəhid olmasını, onların dəfn mərasimini siyasi oyunların predmetinə çevirmək hansı etik və əxlaqi çərçivəyə sığar? Yazdıqlarınıza, etdiklərinizə ədəbsizlikdən başqa nə ad vermək olar..?

# Ekspert: Təqaüdçülərin sosial durumunun, həyat şəraitinin yaxşılaşdırılması daim dövlətin diqqət mərkəzindədir

"Təqaüdçülərin sosial durumunun, həyat şəraitinin yaxşılaşdırılması daim Azərbaycan dövlətinin, Prezident İlham Əliyevin sosial siyasətinin prioritet xəttini təşkil edib". Bu fikri İqtisadi və Sosial İnkişaf Mərkəzinin rəhbəri Vüqar Bayramov deyib.



V. Bayramov bildirib ki, Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva bu kateqoriyadan olan insanlara daim xüsusi qayğı və diqqətlə yanaşırlar. Elə bu diqqət və qayğının, eyni zamanda, son bir ildə daha da geniş vüsət alan, hər bir sahəyə sirayət edən sosial islahatlar paketinin nəticəsidir ki, bu ilin cəmi bir neçə ayı ərzində pensiyaçıların, təqaüdçülərin pensiyaları iki dəfə artırılıb. Onun sözlərinə görə, ölkə başçısının fevral ayında imzaladığı Fərmanla əmək pensiyaların minimum həddi 44 manat artırılaraq, 116 manatdan 160 manata, iyun ayında imzalanan növbəti Fərmanla isə 40 manat artırılaraq, 160 manatdan 200 manata qaldırılıb: "Bu, çox əhəmiyyətli bir hadisədir: "Ötən həftə Prezident İlham Əliyev "Əmək pensiyaları haqqında" Qanuna dəyişikliklə bağlı Fərman imzaladı. Sənədə əsasən, əmək pensiyalarının minimum məbləği 2019-cu il oktyabrın 1-dən 200 manat məbləğində müəyyən olunur: "Həmçinin təyin edilən əmək pensiyasının məbləği əmək pensiyasının minimum məbləğindən aşağı olduqda, həmin məbləğə çatdırılmaqla ödənilir. Bundan başqa, sığortaolunanların fərdi hesabının sığorta hissəsində qeydə alınan pensiya kapitalı ildə bir dəfə müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən olunan istehlak qiymətləri indeksinin illik səviyyəsinə uyğun olaraq müvafiq icra hakimiyyəti orqanının qərarına əsasən indeksləşdirilir. Yeni dəyişikliklərə görə, sığortaolunanların fərdi hesabının sığorta hissəsində qeydə alınan pensiya kapitalı hər ilin əvvəli əvvəlki ilin inflyasiya səviyyəsində indeksasiya olunacaq. Məsələn, əgər pensiya kapitalında 10 min manat vəsait varsa və illik inflyasiya səviyyəsi 6 faizdirsə, o zaman həmin məbləğə 600 manat əlavə olunacaq. Göründüyü kimi, bu Fərman dövlət başçısının pensiyaçılara olan münasibətinin daha bir bariz nümunəsi, əyani göstəricisidir".

## Naxçıvanda sağlamlıq imkanları məhdud şəxslərə qulluq edənlər üçün Prezident təqaüdünün ödənilməsinə başlanılıb

Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 15 aprel tarixli Fərmanına əsasən müvafiq kateqoriyadan olan şəxslərə,?eləcə də sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlara qulluq edən şəxslərə təsis edilən 50 manat məbləğində Azərbaycan Respublikası Prezidentinin təqaüdünün muxtar respublikada ödənilməsinə başlanılıb.

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən AZƏRTAC-ın Naxçıvan bürosuna bildirilib ki, aprel ayının ilk günündən hesablanmaqla ödənilən Prezident təqaüdü bu günədək muxtar respublikada sağlamlıq imkanları məhdud 1642 nəfər şəxsə qulluq göstərən vətəndaşları əhatə edib.

# Muxtar respublikada ailə təsərrüfatlarının inkişafı istiqamətində dövlət tərəfindən kompleks tədbirlər görülür



***Muxtar respublikada daxili bazarın yerli keyfiyyətli ərzaq məhsulları ilə təmin edilməsində xüsusi payı olan ailə təsərrüfatlarının inkişafı istiqamətində dövlət tərəfindən kompleks tədbirlər həyata keçirilir, belə təsərrüfatların yaradılmasına, onların fəaliyyətlərinə hərtərəfli qayğı göstərilir. AZƏRTAC-ın Naxçıvan bürosu xəbər verir ki, bu barədə Şahbuz rayonunun Kolanı Kənd Mərkəzində Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasında ailə təsərrüfatlarının inkişafı ilə bağlı" Sərəncamı ilə təsdiq olunmuş Tədbirlər Planına uyğun olaraq keçirilən seminar-müşavirədə səsləndirilib.***

Tədbirdə çıxış edən icra hakimiyyətinin əməkdaşı Arzu Əhmədov bildirib ki, beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin doqquzuncu sessiyasında 2019-cu ilin muxtar respublikada "Ailə təsərrüfatları ili" elan edilməsi, Ali Məclis Sədrinin 2019-cu il 18 yanvar tarixli Sərəncamı ilə "Naxçıvan Muxtar Respublikasında ailə təsərrüfatlarının inkişafı ilə bağlı Tədbirlər Planı"nın təsdiq olunması şahbuzlu ailə təsərrüfatçılarına böyük stimul olub, bölgədə yeni təsərrüfatların formalaşmasına geniş imkanlar açıb.

"Yaradılan əlverişli şərait ailə təsərrüfatlarının sayının artması ilə yanaşı, ailə biznesinin genişlənməsinə, kiçik və orta sahibkarlığın inkişafına əlavə imkanlar yaradır. Şahbuz rayonunda da son illər çox sayda ailə təsərrüfatları formalaşıb. Mütəmadi olaraq keçirilən festivallarda həmin təsərrüfatların məhsulları yüksək səviyyədə nümayiş olunur və təqdirəlayiq qiymətini alır", - deyən Arzu Əhmədov vurğulayıb ki,?seminar-müşavirənin keçirilməsində məqsəd ailə təsərrüfatı quran insanlara hərtərəfli kömək göstərmək, onları öz təsərrüfatlarını inkişaf etdirmək üçün düzgün istiqamətləndirməkdən ibarətdir.

Tədbirdə Kənd Təsərrüfatı Nazirliyinin əməkdaşı Xaliq Abbasov, Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsinin əməkdaşı Oqtay Məmmədov, İqtisadiyyat Nazirliyinin əməkdaşı İsa Novruzov, Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin əməkdaşı Əli Şərifov və AMEA Naxçıvan Bölməsi Bioresurslar İnstitutunun əməkdaşı, aqrar elmlər üzrə fəlsəfə doktoru, dosent Loğman Bayramov çıxış ediblər. Çıxışlarda muxtar respublikada əkinçiliklə məşğul olan ailə təsərrüfatlarının inkişaf etdirilməsində yaz və payız əkinlərinin əkin atlaslarına uyğun aparılmasının və növbəli əkin sisteminin tətbiqinin əhəmiyyəti, ailə təsərrüfatlarına məxsus torpaqlardan səmərəli istifadə olunması yolları, ailə təsərrüfatlarının inkişaf etdirilərək kiçik sahibkarlıq subyektlərinə çevrilməsi məqsədilə maarifləndirici tədbirlərin genişləndirilməsi və digər məsələlərlə bağlı geniş məlumat verilib.

Sonra suallar cavablandırılıb, ailə təsərrüfatçılarına maarifləndirici bukletlər paylanılıb.

Qeyd edək ki, seminar-müşavirə Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı, İqtisadiyyat nazirliklərinin, Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsinin, Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin, AMEA Naxçıvan Bölməsi Bioresurslar İnstitutunun və Şahbuz Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə keçirilib.

# “OPEC+” formatı: Azərbaycanın enerji siyasətinin növbəti uğuru

## Prezident İlham Əliyevin təşəbbüsü: enerji sferasında mühüm yenilik

Enerji siyasəti dünya üçün strateji əhəmiyyətli bir faktordur. Hazırda böyük dövlətlər enerji sahəsində üstünlüyü ələ almaq naminə ciddi mübarizə aparırlar. Son dövrlərdə bu mübarizə o dərəcədə intensivləşib ki, qlobal miqyaslı ciddi böhranların meydana gəlməsini daha çox məhz həmin faktorla əlaqələndirirlər. Konkret olaraq, ABŞ dünyanın enerjidaşıyıcıları ilə zəngin olan böyük dövlətlərilə kəskin rəqabətdədir. Bu kontekstdə Amerika daha çox Rusiya, Aİ, Səudiyyə Ərəbistanı, Venesuela, İran, Meksika və digər ölkələrin enerji siyasətinə ciddi təsir göstərməyə cəhd göstərir.

Vaşinqton başlıca olaraq neft və qazın qiymətini özünün maraqlarına uyğun tənzimləməyə çalışır. Bunun üçün o, “qaya qazı” (və ya “şist qaz”) istehsalını artırır. Bu proses genişləndiyi halda dünya bazarında təbii qazın qiymətini Amerika müəyyən edəcək. Ekspertlər bu aspektdə iki vacib məqamı vurğulayırlar. Birincisi, dünya bazarında enerjidaşıyıcıların qiyməti bazarın real tələbatına görə deyil, daha çox geosiyasi və siyasi faktorlara görə dəyişmə riski ilə üzləşib. İkincisi, belə bir şəraitdə müstəqil dövlətlərin öz milli təhlükəsizliyini təmin etmək üçün addımlar atmasına ehtiyac getdikcə artır.

Bu iki faktorun işığında bir tərəfdən, böyük dövlətlərin bir-biri ilə rəqabətində risk faktoru yüksəlir, digər tərəfdən, Azərbaycan kimi müstəqil siyasət yeridən dövlətlərin enerji siyasətinin yeni şəraitə daha çevik reaksiya verməsi zərurəti yaranır. Birinci məsələ ilə bağlı hazırda situasiya ürəkaçan deyil. ABŞ, Rusiya, Çin, İran və digər böyük dövlətlər enerji sahəsində nüfuz savaşlarını daha da intensivləşdirməklə yanaşı, silahlı qarşıdurmadan da çəkinmirlər. İndi enerji ilə bağlı üç məkanda - Yaxın Şərq, Venesuela və İranda vəziyyət gərgindir. Heç kəs təminat verə bilməz ki, buna bənzər proseslər digər ölkələrdə də başlamayacaq.

Bütün bunlar ekspertləri daha ehtiyatlı proqnozlar verməyə təhrik edir. Məsələn, ukraynalı ekspert Aleksandr Oxrimenko hesab edir ki, “hələlik OPEC dünya neft bazarında əsas oyunçudur və orada əsas rolu Səudiyyə Ərəbistanı və digər ərəb ölkələri oynayır. Lakin dünya dəyişir. Əgər əvvəllər ABŞ neftin əsas alıcısı idisə, indi dünyada enerji resurslarının əsas satıcısına çevrilir. Faktiki olaraq, ABŞ OPEC ilə rəqabət aparır və gələcəkdə belə mürəkkəb şəraitdə OPEC-in dünya neft bazarında rolunun azalması istisna olunmur. Ona görə də mən hətta OPEC-in yeniləşməsini istisna etməzdim”.




Bu kimi qiymətləndirmələr OPEC-ə üzv və qeyri-üzv ölkələrin Nazirlərinin Birgə Monitorinq Komitəsinin növbəti iclasının Bakıda keçirilməsi işığında daha əhəmiyyətli görünür. Ukraynalı ekspert də bunu Azərbaycan üçün müsbət hal hesab edir. Çünki onun qənaətinə görə, OPEC dünya neft bazarında əsas oyunçudur. Azərbaycan da “OPEC+” formatının təşəbbüskarı və iştirakçısıdır. Bakıda keçirilən OPEC və qeyri-OPEC ölkələri Nazirlərinin Birgə Monitorinq Komitəsinin 13-cü iclasında bu təşkilatın bazarın inkişaf tempinin təhlili əsasında hazırlanmış təqdimatı və Müştərək Texniki Komissiyanın (JTC) hasilat göstəricilərindən bəhs edən hesabatı müzakirə edilib. Bununla yanaşı, Müştərək Texniki Komissiyanın bazarın balanslaşdırılması üzrə tövsiyələri dinlənilib. Bu qurumun neft istehsalının azaldılmasına dair öhdəliklərə əməl etmə səviyyəsi də nəzərdən keçirilib.

Azərbaycan üçün bu cür müzakirələrin əhəmiyyətli tərəflərindən biri, bu formatın tətbiq edilməsi təşəbbüsünü hələ 2016-cı ildə Prezident İlham Əliyevin Davos İqtisadi Forumunda çıxışı zamanı irəli sürməsi ilə bağlıdır. Orada dövlət başçısı neft istehsal edən ölkələrin “OPEC+” formatında iclasının keçirilməsi tezisini irəli sürərək, bu formatın OPEC-in üzvü olan ölkələrlə neft hasil edən, lakin bu qurumda təmsil olunmayan ölkələrin birgə toplantısını keçirməyə imkan verəcəyini əsaslandırmış, o cümlədən enerji resurslarının hasilatı və ixracı, dünya bazarında neftin qiyməti və digər məsələlərin vahid formatda müzakirəsini təşkil etmək şansının meydana gələcəyini ifadə etmişdi.

## Davamlı inkişaf yolunda: milli təhlükəsizliyin təmini

Mütləq vurğulamaq lazımdır ki, o zaman İlham Əliyev neftin qiymətinin stabilləşdirilməsi və 70 dollar civarında saxlanması ilə bağlı məqamların da təhlilini vermişdi. Bütün bunların dünya bazarında neftin qiymətinin 60-70 dollar çərçivəsində qalmasında mühüm rol oynadığını təcrübə göstərdi. Şübhəsiz ki, Azərbaycan Prezidentinin həmin prosesdə xidməti danılmazdır. Konkret desək, dövlət başçısının səmərəli təklifləri və irəli sürdüyü təşəbbüslər dünya enerji bazarında stabilləşməyə ciddi töhfə verdi.

Bakıda “OPEC+” əməkdaşlığı çərçivəsində tədbirin keçirilməsi yuxarıda vurğulanan məqamların işığında xüsusi əhəmiyyət kəsb edir. Belə ki, Azərbaycan dünya üçün faydalı olan bu prosesin həm təşəbbüskarı, həm də fəal iştirakçısı kimi qlobal enerji təhlükəsizliyinə böyük töhfə verdiyini növbəti dəfə təsdiq etmiş oldu. Neftin qiymətinin dünya miqyasında real təklifə uyğun formalaşdırılması sağlam qlobal iqtisadiyyatın inkişafında mühüm rol oynayır. Bundan başqa, dünya üzrə davamlı inkişafın bərqərar olmasına da ciddi xidmət göstərir.

İndi məlumdur ki, qlobal səviyyədə davamlı inkişaf məsələsi BMT-nin 2030-cu ilə qədər strateji inkişaf konsepsiyasının əsas bəndlərindən birini təşkil edir. Deməli, Azərbaycan Prezidenti, faktiki olaraq, dünya əhalisinin ümumi rifahına təkan verən bir təşəbbüslə çıxış edib.

Bu məqamı ekspertlər bütövlükdə Azərbaycan dövlətçiliyinin mühüm əlamətlərindən biri kimi qiymətləndirirlər. Konkret desək, Azərbaycan müstəqil dövlət quruculuğu strategiyasında əməkdaşlığa, bərabərhüquqlu tərəfdaşlıq prinsipinə, ədalətliliyə və qarşılıqlı faydalı əlaqələrin qurulmasına üstünlük verir. Rəsmi Bakının xarici siyasətində barış və əməkdaşlıq motivi həlledici yer tutur. Etiraf etmək lazımdır ki, bu məqam müasir dövlətlər üçün olduqca böyük əhəmiyyət kəsb edir. Çünki dünyanın qarışıq mərhələsində real və səmimi əməkdaşlıq xəttini seçən dövlətlərin mövcudluğu çox əhəmiyyətlidir.

Məsələnin başqa vacib aspekti Azərbaycan rəhbərliyinin milli təhlükəsizliyin təmini üçün enerji siyasətindən maksimum dərəcədə istifadə etməsi ilə bağlıdır. Vaxtında və lazımi səviyyədə həssaslıqla OPEC-lə əməkdaşlıq düzgün strategiya seçiminin nəticəsidir. Bunun arxasında isə yalnız milli maraqların təmini və milli təhlükəsizlik məsələsinin həll edilməsi dayanır. Milli təhlükəsizlik hazırda müstəqilliyini əldə etmiş bütün ölkələr üçün vacib faktordur. Onun yerinə yetirilməsi üçün düzgün diplomatik və siyasi kurs müəyyən etmək gərəkdir. Azərbaycan rəhbərliyi bu vəzifənin öhdəsindən böyük uğurla gəlir.

Beləliklə, dünya enerji mühiti üçün strateji əhəmiyyəti olan növbəti tədbirlərdən birinin Bakıda keçirilməsi Azərbaycanın geosiyasi və geoiqtisadi mövqeyinin daha da möhkəmlənməsinin əlamətidir. Azərbaycan, faktiki olaraq, dünya miqyasında enerji siyasətinin dinamikasına ciddi təsir göstərən ölkəyə çevrilib. Bu isə o deməkdir ki, ölkənin milli təhlükəsizliyi daha geniş aspektdə təmin olunur. Eyni zamanda, Azərbaycan regionun lider dövləti kimi bütün sferalarda söz sahibidir.

Şübhə yoxdur ki, bu gedişat regional münaqişələrin həllində Azərbaycanın rolu və çəkisinin daha da artmasına yeni təkan verir. Onun fonunda Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin danışıqlar yolu ilə həllində forpost ölkənin qarşıya çıxardığı müxtəlif xarakterli təxribatların da ömrünün az olduğu qənaəti yaranır. Bütün dünya üçün böyük əhəmiyyəti olan bir ölkənin - Azərbaycanın haqq səsinin eşidilməsi sadəcə bir zərurətə çevrilib. Bunun bütün böyük dövlətlər tərəfindən dərk edilməsinin vacibliyi vurğulanmalıdır. Həmin mənada “OPEC+” formatı bütövlükdə dünya üçün mühüm bir müzakirə platforması kimi qiymətləndirilir.

***Newtimes.az***

# Azərbaycanda multikulturalizm və tolerantlıq yeni mərhələdədir

***Azərbaycan müstəqillik illərində, dövlət dini azlıqların hüquqlarının qorunması və təminatı sahəsində çox mühüm və ciddi addımlar atıb. Müxtəlif dini mənsubiyyətə malik insanlar, cəmiyyətimizin ayrılmaz tərkib hissəsi olaraq, dövlətin diqqət, qayğı və himayəsini eyni dərəcədə üzərlərində hiss edirlər. Bu gün ölkəmizdə bütün millətlərin və dinlərin nümayəndələri tam qarşılıqlı anlaşma və milli həmrəylik şəraitində yaşamaları üçün hər cür təminat verilib. Sosial bir hadisə olan multikulturalizm və tolerantlıq cəmiyyətdə əmin-amanlıq, bəşəriyyətdə isə sülh deməkdir. Təbii ki, multikulturalizmin olması cəmiyyətdə bərabərliyin, demokratiyanın, tərəqqinin, sosial rifahın, başqa sözlə, ədalətin bərqərarı deməkdir. Müxtəlif siyasi, iqtisadi və coğrafi şəraitlərdə yaşayan xalqların ədalətə çıxışı, ilk növbədə, çoxmədəniyyətliliyin təmin edilməsindən asılıdır. Bir sözlə, Azərbaycan bu sahədə dünyaya örnək bir dövlət kimi özünü təsdiqləyə bilib.***



Multikulturalizmin həyat tərzinə çevrildiyi Azərbaycanın, dünyaya tolerantlıq nümunəsi olaraq, daha geniş tanıdılmasının vacibliyini, eləcə də, ayrı-ayrı ölkələrdəki müxtəlif multikultural modellərə xas fəlsəfi, sosial, siyasi və digər aspektlərin Azərbaycan reallığında təhlili və təşviqinin əhəmiyyətini nəzərə alaraq, Azərbaycan Prezidenti İlham Əliyevin məlum Sərəncamı ilə paytaxtımızda Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi yaradıldı. Multikulturalizm Mərkəzi yarandığı vaxtdan etibarən Prezidentin müəyyənləşdirdiyi Azərbaycanı, ölkəmizin multikultural dəyərlərini, tolerantlıq ənənələrini dünyada tanıtmaq hədəfini qurumun aparıcı istiqaməti elan edib. Azərbaycanda multikulturalizm ənənələrinin qorunub-saxlanması, daha da inkişaf etdirilməsi və geniş təbliğ olunması məqsədi ilə 2016-cı ilin Azərbaycan Respublikasında "Multikulturalizm İli" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin imzaladığı Sərəncamı ölkəmizdə multikultural mühitə olan münasibətin daha bir real ifadəsinə çevrildi.

Dövlət tərəfindən multikulturalizmin həyat tərzinə çevrildiyi Azərbaycanın, dünyaya tolerantlıq nümunəsi olaraq, daha geniş tanıdılması istiqamətində həyata keçirilən multikulturalizm siyasəti və bu istiqamətdə reallaşan tədbirlər dünya dövlətləri üçün nümunəyə çevrilib. Bu gün ölkəmizdə bütün millətlərin və dinlərin nümayəndələri tam qarşılıqlı anlaşma, milli həmrəylik şəraitində yaşaması üçün hər cür təminat verilib. Ölkəmizdə heç bir millətin, milli və ya dini azlığın nümayəndəsinə onların dini mənsubiyyətlərinə görə başqalarından üstün olmaq kimi ideyaları aşılamaq yolverilməzdir.

### "ÖLKƏMİZDƏ YAŞAYAN MÜXTƏLİF XALQLARA ÖZ MİLLİ-MƏNƏVİ DƏYƏRLƏRİNİ, DİNİ ETİQADINI, ADƏT-ƏNƏNƏLƏRİNİ QORUYUB-SAXLAMAQ, DİL VƏ MƏDƏNİYYƏTİNİ İNKİŞAF ETDİRMƏK ÜÇÜN DEMOKRATİK ŞƏRAİT TƏMİN EDİLMİŞDİR"

Azərbaycanda dövlətin dəstəyi hesabına sinaqoqlar, məscidlər, kilsələr tikilib və tikilməkdədir. Ölkəmizdə qədim zamanlardan müxtəlif dini etiqadların, o cümlədən, müsəlmanların, yəhudilərin və xristianların sülh və əmin-amanlıq şəraitində birgə yaşamaları hər kəsə bəllidir. Son illər qloballaşan dünyamızda müxtəlif bölgələrdə dini radikalizm, terrorizm, dözümsüzlük və ksenofobiya kimi halların artdığı dövrdə, Azərbaycan özünəməxsus tolerantlıq təcrübəsi ilə beynəlxalq ictimaiyyət üçün uğurlu bir model təqdim edir. Hər bir dinin nümayəndələri rahat yaşayır, milli bayramlarını qeyd edir, öz dilində təhsil almaq imkanına malikdirlər. Azərbaycan Prezidenti İlham Əliyevin vurğuladığı kimi, bu gün dünyada nümunəvi tolerantlıq örnəyi, sivilizasiyalararası və mədəniyyətlərarası dialoq məkanı kimi tanınan Azərbaycanda tarixən dinlər əmin-amanlıq, qarşılıqlı hörmət və etimad şəraitində fəaliyyət göstərmiş, fərqli mədəniyyətlərin təmsilçiləri olan ayrı-ayrı xalqlar və etnik icmalar ümumi Vətən sevgisi, azərbaycançılıq məfkurəsi ətrafında sarsılmaz birlik və həmrəylik nümayiş etdirmişlər: "Cəmiyyətimizdə etnik-mədəni müxtəlifliyin qorunub-saxlanılması, multikulturalizmin dəstəklənməsi və təşviq edilməsi müasir mərhələdə həyata keçirdiyimiz dövlət siyasətinin başlıca məqsədlərindən biridir. Ölkəmizdə yaşayan müxtəlif xalqlara öz milli-mənəvi dəyərlərini, dini etiqadını, adət-ənənələrini qoruyub-saxlamaq, dil və mədəniyyətini inkişaf etdirmək üçün demokratik şərait təmin edilmişdir".

### "YƏHUDİ İCMASI AZƏRBAYCANDA HƏMİŞƏ ƏMİN-AMANLIQ ŞƏRAİTİNDƏ YAŞAMIŞ VƏ MƏDƏNİYYƏTİNİ, ADƏT-ƏNƏNƏLƏRİNİ QORUYUB-SAXLAMIŞDIR"

Azərbaycan öz dini müxtəlifliyi ilə fəxr edir. Çünki Azərbaycan dünyanın ən qədim xristian dövlətlərindən birinin yerləşdiyi məkan olub və xristian icması əsrlər boyunca, Azərbaycan tarixinin formalaşmasında iştirak edib. Xristian və müsəlman icmaları ilə yanaşı yaşayan təqribən 30 minlik yəhudi icması isə Azərbaycanda iki min ildən bəri yaşamaqdadır. 2003-cü il martın 9-da Bakıda yeni yəhudi sinaqoqu açılmışdır. Bu, Avropada ən böyük sinaqoqdur. 2003-cü ilin sentyabrından Azərbaycanda ilk yəhudi məktəbi fəaliyyət göstərir. 2010-cu ilin oktyabrında isə, Bakının Xətai rayonunda yerləşən üçmərtəbəli təhsil kompleksi ən müasir tələblər səviyyəsində istifadəyə verilmişdir. 450 yerlik mərkəzin digər təhsil müəssisələrindən fərqi burada yəhudi mədəniyyətinin əsasları tədris olunmasıdır.

Azərbaycan Prezidenti İlham Əliyevin vurğuladığı kimi, "Ölkəmizin bütün xalqları, o cümlədən, yəhudi icması Azərbaycanda həmişə əmin-amanlıq şəraitində yaşamış, heç bir ayrı-seçkiliyə məruz qalmadan dil və mədəniyyətini, adət-ənənələrini qoruyub-saxlamışdır. Müstəqil Azərbaycan dövləti bu gün də öz mütərəqqi tarixi ənənələrinə sadiqdir. Müasir demokratik prinsiplərə uyğun olaraq, ölkədə insan haqlarının təminatı, milli azlıqların etnik-mədəni dəyərlərinin qorunması və inkişaf etdirilməsi dövlət siyasətinin prioritet istiqamətlərindəndir".

Təsadüfü deyil ki, bu günlərdə Los-Ancelesdə fəaliyyət göstərən və İran yəhudilərinin ABŞ-da ən böyük sinaqoqu olan Nessah Sinaqoqunda Azərbaycanın multikulturalizm və tolerantlıq ənənələrinə həsr olunmuş geniş tədbir keçirilib. Tədbirdə 800-dən çox yəhudi iştirak edib. Sinaqoqun baş ravvini Devid Şofet Azərbaycanı kimi multikulturalizm və tolerantlıq dəyərlərinə yüksək önəm verən bir ölkə ilə yaxından tanış olmaqdan böyük şərəf hissi keçirdiyini vurğulayıb. O, dünyada baş verən dinlərarası münaqişələr və müxtəlif ölkələrdə getdikcə artmaqda olan anti-semitizm və irqçilik fonunda Azərbaycanda bütün xalqların, o cümlədən, yəhudilərin azad və dinc şəraitdə birgə yaşamalarının, tam dini etiqad azadlığına malik olmalarının çox təqdirəlayiq hal olduğunu qeyd edib. Nə tarix boyu, nə də bu gün hər hansı anti-semitizmin olmadığı Azərbaycanı bütün yəhudilərin dostu adlandırıb.

Görülən işlər, bir daha təsdiqləyir ki, tarixi İpək Yolunda yerləşən Azərbaycan ayrı-ayrı millətlərin və konfessiyaların nümayəndələrinin sülh, əmin-amanlıq, qarşılıqlı anlaşma və dialoq şəraitində yaşadığı diyardır və ölkəmizdə multikulturalizm - alternativi olmayan həyat tərzinə çevrilib.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Yanan meşə sahələrində payız mövsümündə ağaclar əkiləcək

Yanan meşə sahələrinin hamısında payız mövsümündə ağaclar əkəcək, yanan ərazilərin tez bir zamanda bərpa olunmasına çalışacağıq. Bu barədə AZƏRTAC-a Ekologiya və Təbii Sərvətlər Nazirliyinin mətbuat katibi İradə İbrahimova məlumat verib.

Nazirliyin mətbuat xidmətinin rəhbəri bildirib ki, dünyanın bir çox yerlərində meşə yanğınları tüğyan edir, nəticədə insan tələfatı baş verir, minlərlə hektar meşə sahəsi insanların səhlənkarlığı, məsuliyyətsizliyi ucbatından məhv olur.

"Azərbaycanda belə genişmiqyaslı yanğınlar baş verməsə və insan tələfatı qeydə alınmasa da bütün vətəndaşları ehtiyatlı olmağa, yanğın təhlükəsizliyi qaydalarına həssas yanaşmağa çağırırıq. Çünki meşə yanğınlarının səbəbləri ilə bağlı mütəxəssislərin apardığı təhlillər və monitorinqlər göstərir ki, yanğın hadisələrinin çox böyük əksəriyyəti insanların səhlənkarlığı, odla ehtiyatsız davranışı ucbatından və bəzi hallarda bilərəkdən, qəsdən törədilməklə baş verir. Bu cür etinasızlıq, yaxud qəsdən yanğının törədilməsi dövlət büdcəsinə milyonlarla zərər vurur. Biz belə halların azalması və ümumiyyətlə, baş verməməsi üçün təxirəsalınmaz tədbirlər görürük və bundan sonra da görəcəyik. Təəssüf ki, bəziləri təbiətdə olarkən yanğın təhlükəsizliyi qaydalarına əməl etmir və olacaqları düşünmürlər.

İki gündür isti havada gecə-gündüz həyatlarını təhlükəyə ataraq alovun söndürülməsində fəal iştirak edənlərə minnətdarlığımızı bildiririk.

Meşə sahələri ən qiymətli milli təbii sərvətimizdir. Təbiətin bu qiymətli nemətini qorumaq hər birimizin borcu olmalıdır", - deyə İ.İbrahimova qeyd edib.

# "İran ilə Azərbaycan birgə sənaye zonası yaradacaq"

İran ilə Azərbaycan birgə sənaye zonası yaradacaq. AZƏRTAC xəbər verir ki, bu sözləri İranın Sənaye, mədən və ticarət nazirinin müavini Möhsün Salihiyan deyib.



O, Əhvaz şəhəri yaxınlığında yaradılan yeni sənaye zonasının açılışı mərasimində bildirib ki, qonşu ölkələrlə sərhədyanı regionlarda yaradılan sənaye bölgələri daha səmərəli olur. Buna görə də, Azərbaycan və Türkiyə ilə sənaye zonalarının yaradılması haqqında danışıqlar aparılır və razılaşma əldə olunub. Azərbaycan və Türkiyə iqtisadiyyatının inkişaf etdiyini bildirən nazir müavini qeyd edib ki, hər iki ölkə ilə İranın iqtisadi əlaqələri mövcuddur. Azərbaycan ilə qarşılıqlı faydalı əməkdaşlıq əlaqələri yüksələn xətlə inkişaf edir. Bu imkandan faydalanmaq tərəflərə iqtisadi dividend qazandıracaq.

M.Salihiyan nəzərə çatdırıb ki, yaradılacaq sənaye zonasına investisiya qoyaraq istehsal prosesinə başlanması üçün çox asan şərtlər tətbiq ediləcək. Xatırladaq ki, İranda 900 azad ticarət və sənaye zonası var.

# Təhsil sahəsində aparılan islahatlar uğurlu gələcəyimizi təmintıdır



Dövlət başçısı, ölkəyə rəhbərlik etdiyi dövr ərizində, bütün sahələrdə böyük nailiyyətlər əldə etmişdir. 2003-cü ildən bu günə qədər sürətli inkişaf dövrünü yaşayan dövlətimizdə gedən proseslərə həm də Dünya Bankı, həm Avropa Yenidənqurma və İnkişaf Bankı yüksək qiymət verirlər. Bu inkişafın dayanıqlı olması üçün dövlət başçısının çıxışlarının birində qeyd etdiyi kimi, insanlar hazırlıqlı və gənclər bilikli olmalıdırlar. İnkişaf etmiş ölkələrin keçdiyi tarixi yola və bugünkü inkişafına nəzər salsaq, aydın görərik ki, həmin dövlətlərdə təhsilə, elmi inkişaf böyük önəm verilir, islahatlar aparılır. Vurğulamaq yerinə düşər ki, müasir dövrümüz elm, təhsil və qlobal düşüncə, Azərbaycan təhsilinin dünyaya inteqrasiyası dövrü kimi





səciyyələnir. Bu, dövlət tərəfindən Azərbaycan təhsilinə göstərilən diqqət nəticəsində reallaşır. Yaşadığımız "Təhsil və informasiya əsri"ndə ölkəmiz təhsilin keyfiyyəti baxımından yeni mərhələni yaşayır. Prezident tərəfindən təhsilə böyük önəm verilməsi, yeni proqram və layihələrin, təhsil islahatlarının həyata keçirilməsi Azərbaycan təhsilinin dünya standartları səviyyəsində qurulmasına gətirib çıxarıb. "Azərbaycanda təhsil sisteminin təkmilləşməsinə çox böyük diqqət göstərilir. Təhsil bizim gələcəyimizdir" deyən Azərbaycan Prezidenti Azərbaycanda savadlılığın təxminən 100 faiz olduğunu bildirib: "Bu, çox böyük göstəricidir. Elə etməliyik ki, bütün uşaqlar savadlı, bilikli olsunlar, gələcəkdə özləri üçün gözəl həyat qura bilsinlər, dövlətimiz üçün dəyərli vətəndaşlar olsunlar".

## "NEFT KAPİTALINI İNSAN KAPİTALINA ÇEVİRMƏLİYİK!"

Prezident İlham Əliyevin "Neft kapitalını insan kapitalına çevirməliyik!" devizi altında təbii resurslara əsaslanan iqtisadiyyatdan biliklər iqtisadiyyatına keçidi ölkənin strateji hədəfi elan etməsi əbəs deyildi. Qeyd etdiyimiz zaman məsafəsində təhsilin madditexniki bazasının gücləndirilməsi, onun infrastrukturunun müasir tələblər səviyyəsində təşkili və təhsilin prioritetlərinin dünya elminin inkişaf tendensiyaları istiqamətində qurulmasında əhəmiyyətli nailiyyətlər əldə edilib. Təhsil müəssisələrinin müasir informasiya və elmi-metodiki təminatı, təhsil infrastrukturunun yenilənməsi məqsədi ilə dövlət proqramları qəbul edilmiş və layihələr həyata keçirilmişdir. Regionların sosial-iqtisadi inkişafı, yoxsulluğun azaldılması, məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması ilə bağlı qəbul olunan dövlət proqramlarında da məktəb tikintisinə xüsusi önəm verilir. Bakı və Abşeronun sosial-iqtisadi inkişafı ilə bağlı qəbul olunan dövlət proqramlarında yeni məktəblərin tikintisinə diqqət yetirməklə yanaşı, mövcud məktəblərin əsaslı təmirinə də yer ayrılıb. Yeni təhsil müəssisələrinin tikintisi, mövcud məktəblər üçün əlavə korpusların inşası, onların əsaslı təmiri, müasir avadanlıqlarla, laboratoriyalarla təminatı və istilik sisteminin bərpası nəticəsində, ümumilikdə, ölkə üzrə 1 milyondan çox şagirdin təlim şəraiti yaxşılaşdırılmışdır. Təhsil ocaqlarında informatika, laboratoriya otaqları, idman və akt zalları, hərbi otaqlar fəaliyyət göstərir, internet sistemi və müasir tədris avadanlıqları ilə təchiz olunub. Xatırladaq ki, son illərdə reallaşdırılan infrastruktur layihələri çərçivəsində 3000-dən artıq məktəb tikilib və təmir edilib. O cümlədən, ölkəmizin 40-dan çox bölgəsində 100-dən artıq qəzalı vəziyyətdə olan təhsil müəssisəsi modul tipli məktəblə əvəz olunub. Modul tipli məktəblər Balakən, Sabirabad, Şəki, Quba, Qusar, Neftçala, Kürdəmir, Ağdaş, İsmayıllı, Tovuz, Göygöl, Tərtər, Göyçay, Qəbələ, Oğuz və digər rayonlarda inşa olunub.

Milli intibahı təmin edən ən başlıca vasitə olan təhsil həm də cəmiyyət qarşısında dayanan bir çox əsaslı problemlərin həllində vacib rola malikdir. Dünyada gedən qloballaşma və inteqrasiya prosesləri ölkəmiz üçün yüksək elmi potensiala malik mütəxəssislərin hazırlanmasını tələb edir. Dövlət tərəfindən təhsilin inkişafına göstərilən yüksək diqqət, eyni zamanda, Azərbaycanın dünya miqyasında tanıdılmasına və layiqli yerinin təmin olunmasına xidmət edir. Azərbaycanlı gənclərin ölkə üçün zəruri ixtisaslar üzrə xaricdə təhsil almasını və ölkənin inkişafında yaxından iştirak etməsini təmin etmək məqsədi ilə Azərbaycan Prezidenti İlham Əliyevin imzaladığı Sərəncama uyğun olaraq, hazırlanmış "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" istedadlı gənclərinin xaricdə təhsil almalarına yollar açmış oldu. Dövlət Proqramı əsasında Azərbaycan gəncləri ümumbəşəri dəyərlər əsasında təhsil almaq imkanına yiyələnirlər. Xarici ölkələrə tələbə göndərilməsi məqsədilə ixtisaslar seçilərkən, ölkə iqtisadiyyatının davamlı inkişaf strategiyası, iqtisadiyyatın rəqabət qabiliyyətliliyinin gücləndirilməsi, kadrların idarə edilməsi, idarəetmə sistemində aparılan islahatların ehtiyaclarının ödənilməsi və s. müasir dövrün tələblərinə uyğunlaşdırılması kimi prioritet istiqamətlər nəzərə alınır. Hazırda uğurla həyata keçirilən Dövlət Proqramı əsasında Azərbaycan gəncləri ABŞ, Böyük Britaniya, Almaniya, Fransa və başqa ölkələrdə təhsil alırlar. Bu tələbələrin yarıdan çoxu magistratura, aspirantura, doktorantura və digər diplomdan sonrakı proqramlar üzrə təhsilə yiyələnirlər. Gənclərin xarici ölkə ali məktəblərində təhsil almalarının təşkili prosesi dövlət, ictimai və özəl təşkilatların qarşılıqlı əlaqələri prinsipi üzərində qurulur. Tələbələrin bütün xərcləri - viza məsələləri və qəbul edən ölkədə onların qeydiyyata alınması, təhsil haqqı, yaşayış, tədris ədəbiyyatı ilə təminat, tibbi sığorta və gediş-gəliş biletlərinin alınması dövlət hesabına maliyyələşdirilir. Bu gün müxtəlif proqramlar üzrə xaricdə təhsillərini bitirib, Azərbaycana qayıtmış yüzlərlə məzun müxtəlif sahələrdə çalışaraq, ölkəmizin iqtisadi, mədəni və elmi potensialının gücləndirilməsinə layiqli töhfələrini verməkdədirlər.

## TƏHSİLİN MƏZMUNU VƏ KEYFİYYƏTİ VƏ TƏLİMİN TƏŞKİLİNƏ VERİLƏN TƏLƏBLƏRDƏ CİDDİ YENİLƏŞMƏ VƏ MÜASİRLƏŞDİRMƏ PROSESLƏRİ

Ardıcıl olaraq təhsil sahəsində köklü islahatların aparılması məktəblilərin burada şəxsiyyət kimi formalaşmasına təsirini göstərməkdədir. Müasir dövrümüzdə bu islahatların ən mühüm mərhələsi yaşanılır. Təhsilin məzmunu və keyfiyyəti və təlimin təşkilinə verilən tələblərdə ciddi yeniləşmə və müasirləşdirmə prosesləri gedir. Ümumiyyətlə, Azərbaycan təhsilini beynəlxalq standartlara uyğunlaşdırmaq üçün atılan addımlar, onu deməyə əsas verir ki, Prezident İlham Əliyevin "qara qızıl"ın insan kapitalına çevrilməsi çağırışı uğurla reallaşmaqdadır. Azərbaycan Prezidenti İlham Əliyevin "Azərbaycan təhsilinin inkişafı üzrə Dövlət Strategiyasının təsdiq olunması haqqında" imzaladığı Sərəncam isə təhsil islahatlarının daha sistemli aparılması və ölkənin inkişafına daha yüksək töhfələr vermək istiqamətində düşünülmüş konseptual bir sənəd olaraq əhəmiyyətlidir. Reallıqlar göstərir ki, müstəqil Azərbaycan iyirmi birinci yüzillikdə qlobal inteqrasiya mexanizminə qoşulmuş sivil, demokratik dövlət kimi inkişafını təhsildən kənarda görmür, bu sahələrin inkişafına daim xüsusi diqqət yetirir.

Bu gün ölkəmizdə beynəlxalq yarışlar keçirilir ki, bu da, ölkəmizdə elmə verilən qiymətin məntiqi nəticəsidir. Məlumdur ki, Azərbaycan 31-ci Beynəlxalq İnformatika Olimpiadasına ev sahibliyi etdi. İnformatika üzrə beynəlxalq yarışa artıq 24 dəfə qatılsa da, ölkəmiz bu yarışa ilk dəfə ev sahibliyi edirdi. Məlumat üçün qeyd edək ki, informatika üzrə ilk olimpiada UNESCO-nun təklifi və dəstəyi ilə keçirilib. Bu nüfuzlu beynəlxalq yarışda indiyə qədər 24 dəfə təmsil olunan Azərbaycan komandaları 1 gümüş və 4 bürünc olmaqla, ümumilikdə, 5 medal qazandılar. Bu, onu göstərir ki, həm respublika, həm də beynəlxalq olimpiadalarda şagirdlərin uğurları ildən-ilə yaxşılaşır.

Keyfiyyətcə yeni, daha yüksək tarixi inkişaf mərhələsinə qədəm qoyan Azərbaycan təhsil sahəsində, eləcə də, digər sahələrdə bu uğurların əldə olunmasına ölkədəki sabitlik və təhlükəsizlik əsas şərtdir. Cənab Prezident qeyd etdiyi kimi: "... sabitlik hər bir ölkənin inkişafı üçün başlıca şərtdir. Azərbaycanda isə sabitliyin mənbəyi Azərbaycan xalqıdır, onun iradəsidir və eyni zamanda, bizim apardığımız siyasətdir. Çünki bizim siyasətimiz milli maraqlara söykənir, milli maraqlarımız bizim üçün hər şeydən üstündür".

**Nəzakət ƏLƏDDİNQIZI**

# Uşaqların sağlamlığı daim dövlətimizin diqqətindədir

*Bu günün yeniyetməsi və körpəsi sabahın qurucusu və yaradıcısıdır. Hər bir ölkənin gələcək inkişafı, məhz onlardan asılıdır. Odur ki, onların sağlam mühitdə böyümələri, tərbiyə alması üçün dövlətimiz tərəfindən tədbirlər görülür. Bu qayğı sağlam düşüncəli, sağlam ruhlu, sağlam vücudlu insanların yetişmələri ilə yanaşı, onların vətənə bağlı, vətən sevgili vətəndaş kimi böyümələrinə xidmət edir. Təbii ki, yetişən nəslin xalqa bağlı tərzdə böyüməsi və formalaşması hər bir dövlət üçün prioritet məsələdir. Uşaqların layiqli vətəndaş kimi yetişmələri, uşaqlarla bağlı sosial problemlərin həlli, uşaq hüquqlarının etibarlı təminatı baxımından, dövlət səviyyəsində bütün addımlar atılır.*



Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası ilə əlaqədar yaranan ictimai münasibətləri tənzimləmək və bu sahədə dövlət orqanlarının, müəssisələrin və təşkilatların hüquq və vəzifələrini müəyyən etmək məqsədilə, "Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilib. Azərbaycan Prezidentinin 2006-cı il martın 29-da təsdiqlədiyi "Azərbaycan Respublikasında dövlət-uşaq müəssisələrindən uşaqların ailələrə verilməsi (de-institusionalizasiya) və alternativ qayğı Dövlət Proqramı" xüsusi əhəmiyyət kəsb edir. Proqramın məqsədi uşaq müəssisələrindəki uşaqların ailələrə verilmələrini təmin etmək və onların həmin müəssisələrə verilmələrinə şərait yaradan amilləri tənzimləməkdir.

İstedadlı uşaqların yaradıcılıq imkanlarının inkişaf etdirilməsi də diqqət mərkəzindədir. Bu məqsədlə Prezident İlham Əliyev tərəfindən 2006-cı ilin aprelində "Xüsusi istedada malik olan uşaqların (gənclərin) yaradıcılıq potensialının inkişafı üzrə Dövlət Proqramı (2006-2010-cu illər)" təsdiq olunub.Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən isə "Azərbaycan Respublikasında xüsusi qayğıya ehtiyacı olan (sağlamlıq imkanları məhdud) uşaqların təhsilinin təşkili üzrə İnkişaf Proqramı (2005-2009-cu illər)" təsdiqlənib.

### ANA VƏ UŞAQLARIN SAĞLAMLIĞINA GÖSTƏRİLƏN TİBBİ XİDMƏTİN KEYFİYYƏT VƏ SƏMƏRƏLİLİYİ YÜKSƏLİB

Cəmiyyətimizin zərif və kövrək nümayəndələri olan uşaqların sağlamlığı üçün də bu gün ölkəmizdə hər cür şərait yaradılıb. Uşaqların qidalanmasının müdafiəsi sahəsində, dövlət siyasətinin əsas istiqamətləri kimi, uşaqların qidalanması ilə bağlı məqsədli dövlət proqramları hazırlanaraq, həyata keçirilib. 2006-2010-cu illəri əhatə edən "Ana və uşaqların sağlamlığının qorunması üzrə Tədbirlər Proqramı" çərçivəsində əhəmiyyətli islahatlar aparılıb. 2014-cü il 13 iyun tarixində Azərbaycan Respublikasının Prezidenti tərəfindən imzalanmış "Ana və uşaqların sağlamlığının yaxşılaşdırılmasına dair 2014-2020-ci illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi barədə" Sərəncam da gənc nəslin sağlamlığının yüksək səviyyədə qorunmasına xidmət edir. Proqram çərçivəsində respublikamızda ana və uşaqların sağlamlığının qorunması sahəsində tibbi xidmətlərin keyfiyyətinin yüksəldilməsi, həmçinin, kadr hazırlığının gücləndirilməsi, regionallaşdırma prinsipi əsasında perinatal yardım islahatlarının davam etdirilməsi, doğuşayardım tibb müəssisələrinin maddi-texniki bazasının gücləndirilməsi, uşaqlara, o cümlədən, yenidoğulmuşlara, körpələrə göstərilən tibbi xidmətin keyfiyyət və səmərəliliyi yaxşılaşdırılıb. Zəruri vəzifələrin həyata keçirilməsi davam etdirilir.

Həmin tədbirlərin davamlılığının təmin edilməsində Azərbaycan Prezidenti İlham Əliyevin 2013-cü il 10 dekabr Sərəncamı ilə təsdiq olunmuş "Uşaqların icbari dispanserizasiyadan keçirilməsinə dair Dövlət Proqramı"nın da əhəmiyyətli rolu var. Bu Dövlət Proqramı uşaqlar arasında xəstələnmənin, habelə, sağlamlıq imkanlarının məhdudluğunun və ölümün səviyyəsinin azaldılmasında əhəmiyyətli rol oynayıb.

Görülən işlərin davamı olaraq, bu günlərdə, "Körpələrin və erkən yaşlı uşaqların qidalanması haqqında" Qanunun tətbiqi haqqında Azərbaycan Prezidenti Fərman imzalayıb. Qanuna əsasən, uşaqlar üçün nəzərdə tutulan süni qida məhsullarının minimum keyfiyyəti və təhlükəsizliyinə dair tələblər, onların istehsalı, qablaşdırılması, etiketlədirilməsi, saxlanması, daşınması və satış şərtləri qida təhlükəsizliyi sahəsində texniki-normativ hüquqi aktların tələblərinə, habelə, Ümumdünya Səhiyyə Təşkilatının bu sahədə olan qaydalarına cavab verməlidir.

Uşaqların sağlam həyat tərzinin təmin edilməsi və sağlamlıqlarının möhkəmləndirilməsi istiqamətində də ciddi addımlar atılır. Sevindirici haldır ki, ölkəmizdə son illər görülən genişmiqyaslı işlər sırasında ana və uşaqların sağlamlığının qorunması istiqamətində həyata keçirilən tədbirlər mühüm yer tutur. Bu və ya digər tədbirlər bu sahəyə dövlət qayğısının təzahürüdür.

*Nəzakət ƏLƏDDİNQIZI*

## "Mərhəmət və Xeyriyyəçilik həftəsi"

Məlumdur ki, Heydər Əliyev Fondunun Prezidenti, respublikamızın Birinci vitse-prezidenti Möhtərəm Mehriban xanım Əliyeva çağdaş müstəqil ölkəmizdə xeyriyyəçilik və mərhəmət hərəkatının banisidir. Bunun nəticəsində uzun illərdir ki, milli və beynəlxalq səviyyədə həyata keçirilən layihələrə görə, O və rəhbərlik etdiyi fond xeyriyyəçilik və mərhəmət ünvanı kimi tanınır və ildənilə sərhədləri bilinməyən, ölkəmizin hüdudlarından çox uzaqlarda yaşayan və ehtiyacı olan insanların ümid yerinə çevrilmişdir. Bu nəcib missiyaya ölkəmizdə qoşulmağı fəxarət hesab edənlərin sayı da sürətlə artır. Qeyd etmək lazımdır ki, xeyriyyəçiliyi və mərhəməti həyat tərzi hesab edən fondun vitse-prezidenti Leyla Əliyevanın fəaliyyəti də bu gün yetişməkdə olan gənclərə örnəkdir. Fond tərəfindən həyata keçirilən və formalaşdırılan xeyriyyəçilik hərəkatı, məhz ölkəmizdə hər kəs üçün bir nümunədir. Bu mənada, YAP Nəsimi rayon təşkilatı insanlığa xidmət edən bu ənənəyə sadiq qalaraq, 21 avqust və 27 avqust tarixini rayon ərazisində "Mərhəmət və Xeyriyyəçilik həftəsi" elan etmişdir. Bu həftə ərzində, YAP Nəsimi rayon təşkilatının fəal üzvləri rayon ərazisində yaşayan qayğıya ehtiyacı olan aztəminatlı ailələrə baş çəkəcək, onların problemləri ilə tanış olacaq və bu problemlərin həll olunmasına dəstək verəcəklər.

*Nəzakət Bayramova*

## Ukraynada "Nəsimi ili" çərçivəsində tədbir keçirilib

Ukraynanın Volın vilayətinin Şatsk şəhərində "Nəsimi ili" ilə bağlı tədbir keçirilib. AZƏRTAC xəbər verir ki, Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi və Azərbaycan-Ukrayna Beynəlxalq Alyansının təşkilatçılığı ilə keçirilən tədbirdə Volın vilayətinin, Şatsk şəhər meriyasının rəsmiləri, ictimai xadimlər və yerli KİV nümayəndələri iştirak edib.



Tədbirdə çıxış edən Azərbaycan-Ukrayna Beynəlxalq Alyansının sədri Elmar Məmmədov İmadəddin Nəsiminin böyük mütəfəkkir, dövrünün ən parlaq şairi olduğunu və bütün dünya xalqları tərəfindən sevildiyini vurğulayıb. Bildirib ki, belə mədəni tədbirlərin keçirilməsi Ukrayna və Azərbaycan arasında dost, qardaş münasibətlərin bariz nümunəsidir. Diasporla İş üzrə Dövlət Komitəsinin maraqlı layihələrə diqqət ayırdığını qeyd edən E.Məmmədov bildirib ki, bu, dünyada Azərbaycanın tanıdılmasında böyük töhfələr verəcək.

Sonra tədbirdə çıxış edən Volın vilayət Administrasiyasının rəsmisi Valeri Krivaroq, Şatsk meriyasının nümayəndəsi Nikolay Tsvit Nəsimi kimi filosof şairlərin anılmasının, gələcək nəsillərə tanıdılmasının önəmindən danışıblar. Tədbirdə Nəsiminin şerləri və qəzəlləri dinlənilib. Daha sonra Nəsimi haqqında film nümayiş olunub.

# "Qərəzli kampaniyalar effekt doğurmayacaq"

"Azərbaycan gücləndikcə, beynəlxalq aləmdə güclü mövqeyə sahib olduqca, müstəqil siyasət yürütdükcə, özü öz taleyinə sahib çıxdıqca ölkəmizə qarşı xaricdən hücumlar daha da artıb. Son vaxtlar isə bu hücumlar ifrat halını alıb. Ədalətsiz, qərəzli mübarizə o qədər açıq müstəviyə keçib ki, artıq bu oyunu quranlar niyyətlərini gizlədə və "fəaliyyətlərini" arqumentləşdirə bilmirlər". Bu fikirləri SİA-ya açıqlamasında Mətbuat Şurasının sədr müavini, media ekspert Müşfiq Ələsgərli deyib.




O bildirib ki, onlar Azərbaycana qarşı hansı "iradı" bildiriblərsə, bunlara tutarlı cavab verilib, iddiaların əsassız olduğu konkret faktlarla sübuta yetirilib. Hazırda arqumentləri tükənən, əsaslandırılmış mövqe ortaya qoya bilməyən bu qüvvələrin çılpaq və iyrənc oyun apardığını deyən M. Ələsgərli söyləyib ki, onlar heç bir əsas olmadan Azərbaycanı hər şeyə görə "tənqid" edirlər.

Onun sözlərinə görə, bununla onlar Azərbaycan daxilində - cəmiyyətlə dövlət, cəmiyyətlə hakimiyyət arasında etimadsızlıq mühiti yaratmağa çalışır, bu zaman təhqirlərə, böhtanlara yol verir, ictimai rəyi çaşdırmağa cəhd edirlər: "Bütün bunlar xaricdən Azərbaycanın daxilinə müdaxilədir və ölkədə ictimai-siyasi sabitliyi pozmağa hesablanıb. Xatırladım ki, vaxtilə bu güc mərkəzləri qarayaxma kampaniyalarını həyata keçirmək üçün Azərbaycanda bəzi qeyri-hökumət təşkilatları vasitəsilə öz tərəfdaşlarına maliyyə vəsaitləri ötürürdülər. Bu, qrant formasında, guya cəmiyyət üçün faydası olan hansısa işin həyata keçirilməsini maliyyələşdirmək adı altında edilirdi. Lakin Azərbaycan dövləti sonradan müəyyən etdi ki, bu qrantların böyük hissəsi heç də təyinatı üzrə xərclənmir, daha çox siyasi məqsədlərə, siyasi qrupların fəaliyyətinə yönəldilir. Ardınca həmin qruplar vasitəsilə ölkə daxilində ictimai-siyasi sabitliyin pozulmasına, Azərbaycan dövlətinin gözdən salınmasına cəhdlər edilir. Bildiyiniz kimi, 2014-cü ildə "Qrant haqqında" qanunvericiliyə əlavə və dəyişiklik edilib, QHT sektorunda çox böyük təftiş işi aparılıb, xaricdən ölkəmizə pulların ötürülməsi, siyasi qrupların maliyyələşməsi mexanizmi, onların əsas hədəfləri ifşa olunub".

Ekspert əlavə edib ki, indiyə qədər Azərbaycana qarşı müxtəlif sahələrdə aparılan belə savaşlar öz nəticəsini verməyib kimi, hazırda müşahidə etdiyimiz qərəzli kampaniyalar da effekt doğurmayacaq: "Çünki, Azərbaycan xalqı öz dövlətini və hakimiyyətini qoruyur".

*Nailə Məhərrəmova*

# Ədəbsizliyin Əli Kərimli nümunəsi

## *Dəfn mərasimini siyasiləşdirməyə cəhd etmək mənəviyyatsızlıqdan başqa bir şey deyil*

***Mövcud reallıq ondan ibarətdir ki, xarici maraqlı dairələrin əlaltısı rolunda çıxış edən AXCP, "Milli Şura", Müsavat və bu kimi digər partiyalar və qurum liderlərləri xalqın faciələrindən öz məqsədləri üçün istifadə etməyə cəhdlər göstərib. Bunun biz Xocalı soyqırımı və 20 Yanvar faciəsi zamanı Müsavat başqanı Arif Hacılının, AXCP sədri Əli Kərimlinin, "Milli Şura"nın rəhbəri Cəmil Həsənlinin müxtəlif təxribatları ilə gündəmə gəlməyə cəhd etdilərini görmüşük. Məhz bu xislətlərinə görə də, cəmiyyət tərəfindən növbəti dəfə ittiham və qınaq obyekti olublar. İndi də, ənənəvi ampluasından çıxış edən Ə.Kərimli və A.Hacılı 24.07.2019-cu il, axşam saatlarında təlim-məşq uçuşları keçirən Hərbi-Hava Qüvvələrinin "Miq-29" təyyarəsinin Xəzər dənizində itkin düşən pilotu, polkovnik-leytenant Rəşad Atakişiyevin nəşinin tapılmasından sonra müxtəlif pozucu xarakterli açıqlamaları ilə çıxış etmələri ilə gündəmə gəlməyə çalışırlar. Təbii ki, bu da, yolverilməzdir və haqlı olaraq, mərhum pilotun qohumları, eləcə də, cəmiyyət tərəfində, sərt təpki ilə qarşılanır. Hətta mərhum pilotun qohumları müxalifətə ünvanladıqları müraciətlərində, onları təxribat xarakterli açıqlamalarını dayandırmağa çağırıblar.***



### "Biz sizləri vida mərasimdə görmək istəmirik"

Pilot R.Atakişiyevin qayınatası, politoloq Qabil Hüseynli isə müxalif siyasi partiya üzvlərini və siyasi qrupları keçiriləcək vida mərasimində görmək istəmədiklərini bildirib. Qabil Hüseynli vida mərasimindən müxtəlif siyasi məqsədlər üçün istifadə etmək arzusunda olan şəxslərə müraciət ünvanlayaraq, onların mərasimə qatılmalarını istəmədiklərini bildirib: "Ailəmiz çox çətin, ağır və kövrək bir dönəmdən keçir. Ailəmizin, hətta xalqımızın sevimlisi, rəşadətli pilotumuz Rəşad Atakişiyevi itirmişik. Mərhumun dəfni ilə bağlı həyata keçirilən vida mərasiminə dövlət öz dəstəyini göstərir. Müəyyən siyasi partiyaların və qrupların tədbirə qatılmaq və mərasim vasitəsilə siyasi dividend əldə etmək istəkləri barədə məlumatlar əldə etmişik. Həmin şəxslərdən, artıq dərəcədə xahiş edirik ki, sabah keçiriləcək vida mərasiminə qatılmasınlar. Rica edirəm ki, bu ağrılı günümüzdə bizi başa düşsünlər".

Məsələ ilə bağlı "Səs" qəzetinin və eyniadlı informasiya agentliyinin baş redaktoru Bəhruz Quliyev "Facebook" səhifəsində yazaraq bildirib ki, dəfn mərasimini siyasiləşdirmək cəhdi böyük ədəbsizlikdir. Baş redaktor qeyd edib ki, "20 faiz torpaqları işğal altında olan Azərbaycanın sərhədində hər hansı bir hadisənin olması təbii prosesdir. Belə məqamların üzərində oyun qurmaq cılızlıqla yanaşı, siyasi mübarizədə naşılıq, şəhidlərin ruhuna hörmətsizlikdir". B.Quliyev onu da bildirib ki, şəhid pilot, polkovnik-leytenant Rəşad Atakişiyevin həlakı, eləcə də, dəfn mərasimi siyasi predmet olmamalıdır: "Bu, yolverilməz, mənəvi dəyərlərə ziddir. Ona görə də, pilotun yaxın qohumu, politoloq Qabil Hüseynli şəhid pilotun dəfn mərasimindən siyasi məqsədlər üçün istifadə etmək istəyənlərə yerində çağırış edib. Qabil Hüseynli həmin şəxslərin xislətini çox gözəl bilir. Ümumiyyətlə, hesab edirəm ki, dəfn mərasimini siyasiləşdirmək məqsədi ədəbsizlikdir. Vətən uğrunda həlak olanlara Allahdan rəhmət diləyirəm".

### Müxalifət başbilənlərinin yeri tarixin zibilliyidir

Ümimiyyətlə, yuxarıda qeyd etdiyim kimi, zaman-zaman müxalifətin başbilənləri xalqın faciələrindən siyasi məqsədləri üçün iitifadə etməyə çalışıblar. Məkrli niyyətlərinə nail ola bilməsələr də, görünən odur ki, çirkin niyyətlərindən və əməllərindən əl çəkmirlər. Hətta bəzən məram və məqsədlərini anlamayan 5-10 gənci ələ alıb, onları dövlətə qarşı yönəltməyə və öz çirkin məqsədləri üçün istifadə etməyə cəhd edirlər. Bu baxımdan, demək olar ki, Azərbaycana təzyiq etmək üçün xarici dövlətlərin kəşfiyyat orqanlarına material ötürən gənclər, məhz AXCP və Müsavatın sıralarından çıxıb. Həmin gənclər, bəlkə də, etdiklərinin fərqini iş-işdən keçdikdən sonra anlamağa başlayırlar. Həmin gənclər məhbəs divarları arasında olanda, səhvlərini başa düşürlər ki, bu zaman da, artıq gec olur. A.Hacılının, Ə. Kərimlini və C.Həsənlinin gənclər siyasətləri yalnız xəyanət, satqınlıq, riyakarlıq, dövlətə və xalqa qarşı düşmənçilik etməkdir. Söz yox ki, bu siyasətin həyata keçirilməsindən, müxlifət başbilənləri xarici maraqlı dairələrdən maliyyə yardımları alırlar. Xatlrlatmaq lazımdır ki, 2016 cı ilin aprel hadisələri dövründə bütün xalq tarixi qələbə əhval ruhiyyəsində olduğu halda, Əli Kərimli məsələnin mahiyyətini təhrif etdi, ordumuza qarşı kampaniya təşkil etməyə çalışdı. Həmin hadisələrlə bağlı dəfn mərasiminə başının dəstəsi ilə gəldi bütün yol boyu müxtəlif KİV- lərə müsahibələr verdi. Dəfn, yas mərasimində iştirak edən şəxs belə cılız hərəkətlərə yol verirsə, onun orada olması atzuolunandırmı? Təbbii ki, birmənalı mövqe və fikir ondan ibarətdir ki, arzu edilən deyil. Onun digər kütləvi tədbirlərə də münasibəti eynidir. Bu insan istənilən məsələnin mahiyyətini öz maraqlarına uyğun istiqamətləndirməyə və maksimum yararlanmağa çalışır.

### Əli Kərimlinin hərəkətləri şəhidlərimizə, onların yaxınlarına hörmətsizlikdən başqa bir şey deyil

Hansı şəxs əzizinin yas mərasimini siyasi avantüra vasitəsinə çevirmək istəyənləri bu mərasimdə görmək istəyər? Söz yox ki, kimsə bunu istəməz. Buna görə də, mərasim sahiblıri Ə.Kərimlini görmək istəmir və öz fikirlırini aydın şəkildə ifadə edirlər. Ə. Kərimlinin hakimiyyətə və dövlətə qarşı nifrəti elə yüksək səviyyəyə çatıb ki, o, artıq nə etdiyinin və nə dediyinin fərqində deyil. Onun üçün başlıca hədəf xarici maraqlı dairələrin sifarişlərini yerinə yetirməkdir. Çünki belə tərbiyyə alıb və maddi dəstək qarşılığında üzərinə belə öhdəliklər götürüb. Demokratik Maarifçilik Partiyasının sədri Elşən Musayev bildirib ki, Ə. Kərimli fəaliyyəti boyu həmişə Qərb üçün alqı-satqı obyekti olub. Onun sözlərinə görə, Ə. Kərimli bütün siyasi fəaliyyəti boyunca, ancaq satılmaq işinə baxıb: "Əli Kərimli ancaq alqı-satqı cəmiyyəti qurub. Bu şəxsin mahiyyəti və xisləti, məhz Qərbə satılmağa köklənib. Əli Kərimlini Azərbaycan daxilində heç kim saymasa da, o, bir çox beynəlxalq təşkilatların və qurumların əlində həmişə oyuncaq olub. Həmişə Azərbaycan dövlətinə qarşı çıxıb. Lakin bunu Azərbaycan hakimiyyətinə qarşı çıxmaq kimi ifadə edib. Bu gün hər şey ortalıqdadır. Onun ətrafında Qəddafiyə oxşayan Gözəl Bayramovadan, Azərbaycan iqtidarına xəyanət edən Gültəkin Hacıbəylidən və boş-boş danışan Fuad Qəhrəmanlıdan başqa heç kim qalmayıb".

Elşən Musayev onu da bildirib ki, bu insanlar ancaq bazar jarqonu ilə danışırlar: "Ə.Kərimlinin ətrafında olanlardan biri də G. Hacıbəylidir. O, alınıb-satılmağı gözəl bilən adamdır. Çünki vaxtilə Azərbaycan iqtidarını bizdən daha yaxşı müdafiə edib. Deməli, o, bunu mandata, mövqeyə və statusa sahib olmaq üçün edib. Heç kim zəmanət vermir ki, bu insanlar bir başqa xırda məsələyə görə dövləti və hakimiyyəti getdikləri yolda satmayacaqlar. Gültəkin Hacıbəyli alqı-satqı məsələləri üzrə mütəxəssisdir. Mən özümə borc bilərək, ona və cəmiyyətə bu mesajı vermək istəyirəm ki, Əli Kərimli heç kimə lazım deyil. Xüsusilə də, iqtidara lazım deyil. Bu gün o, heç beynəlxalq təşkilatlara da lazım deyil. Çünki bir alqı-satqı obyekti olaraq, bu insan çox işlədilib. İşlənmiş əşyalara isə nə Azərbaycan siyasəti, nə Azərbaycan hakimiyyəti, nə də beynəlxalq təşkilatlar ehtiyac duymurlar. Milli xəyanətkarların yeri tarixin zibilliyidir və onlar sona qədər həmin zibillikdə qalacaqlar".

**İ.ƏLİYEV**

# Nazirlik: "İnsanlar təbiətdə olarkən yanğın təhlükəsizliyi qaydalarına əməl etmirlər"

***"Təəssüf ki, insanlar təbiətdə olarkən yanğın təhlükəsizliyi qaydalarına əməl etmir və yarana biləcək fəsadları hesablamırlar. Fikirləşmirlər ki, belə məsuliyyətsiz addımların nəticəsində hektarlarla meşə örtüyü məhv olur." Bunu jurnalistlərə açıqlamasında Ekologiya və Təbii Sərvətlər Nazirliyinin (ETSN) Meşələrin İnkişafı Departamentinin direktoru Ağaqardaş Qaraşov deyib.***




"Hazırda ETSN-in, FHN-in əməkdaşları, aviasiya dəstəsinin iki helikopteri və bir təyyarəsi havadan suçiləmə vasitəsilə yanğının söndürülməsində iştirak edirlər. Yanğının söndürülməsində mümkün olan bütün vasitələrdən istifadə olunur. Yanğın çərçivəyə alınıb və ümid edirik ki, yaxın zamanlarda onun söndürülməsinə nail olunacaq. Yanğın, ümumilikdə 10 hektar sahənin daxilində talalar şəklində 5 hektar əraziyə yayılıb. Başvermə səbəbinə gəldikdə isə yenə də insan faktorunun üzərində dayanırıq və əhaliyə bir daha müraciət edirik ki, təbiət qoynunda olarkən odla ehtiyatlı davransınlar, meşə sahələrinə, qoruqlara, milli parkların ərazilərinə daxil olarkən yanğın hadisələrinin törədilməsinə yol verməsinlər, yanğına səbəb olacaq hərəkətlərdən çəkinsinlər.

Milli parklar, qoruqlar və meşə sahələri ilə sərhəddə yerləşən kənd sakinlərindən xahiş edirik ki, belə hallara rast gəldikdə dərhal meşə mühafizə işçilərinə xəbər versinlər və onlar özləri də bu yanğınların tez bir zamanda söndürülməsində iştirak etsinlər".

# İş icazəsi verilmiş əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin 5,1 faizi təhsil sahəsində çalışıb



Bu ilin 7 ayı ərzində xidmət sahəsində işləyənlərin 20,6 faizi təhsil sahəsinin payına düşür. AZƏRTAC xəbər verir ki, bu məlumat Dövlət Statistika Komitəsinin hesabatında əks olunub.

Hesabatda bildirilir ki, 2019-cu ilin II rübünün sonuna ölkə ərazisində haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul olmaq üçün verilmiş və müddəti uzadılmış iş icazələrinə malik əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin sayı 2677 nəfər olub. Onlardan 5,1 faizinə təhsil sahəsində məşğul olmaq üçün iş icazələri verilib. Bundan başqa, 2019-cu ilin yanvar-iyun aylarında peşə, elmi və texniki fəaliyyət üzrə bir işçiyə düşən orta aylıq işlənmiş iş saatlarının miqdarı 145,1 saat təşkil edib.

# Kəlbəcər və laçınlılar rayonlarının işğaldan azad olunmasını və yurdlarına qayıtmaqlarını tələb edirlər



***Kəlbəcər və Laçın rayonu əhalisi rayonlarının işğaldan azad olunmasını və özlərinin dədə-baba yurdlarına qayıtmalarını tələb edirlər. Bu barədə XİN mətbuat xidmətinin rəhbəri Leyla xanım Abdullayeva özünün "tvitter" hesabında məlumat verib. Kəlbəcər və Laçının əhalisinin qayıtması Dağlıq Qarabağ münaqişəsinin praktiki mərhələsinin başlanğıcı ola bilər. Uzun müddətdir ki, praktiki mərhələyə keçid mümkün deyil və müxtəlif mübahisələr gedir. Paradoksal görünsə də, Kəlbəcər və Laçına yerli əhalinin qayıtması ən asan məsələlərdən biridir:***

**I.** Kəlbəcər və Laçın rayonları ermənilər tərəfindən məskunlaşdırıla bilməyib.

**II.** Azərbaycanın işğal olunmuş digər rayonları ilə müqayisədə Kəlbəcər və Laçında hərbi hissələr yoxdur və kiçik hərbi bölmələr yerləşdirib.

**III.** Kəlbəcər və Laçın Ermənistan-Azərbaycan dövlət sərhədində yerləşir. Ermənistan silahlı qüvvələrinin baş qərargah rəisi Artak Davtyan, bir müddət öncə, sərhədlərin birgə qorunması təşəbbüsü ilə çıxış etmişdi. A. Davtyanın bu ideyası da Ermənistan-Azərbaycan dövlət sərhədinin Kəlbəcər və Laçın rayonunun ərazisində reallaşdırıla bilər. Ermənistan-Azərbaycan sərhədinin Kəlbəcər və Laçın ərazisindəki hissəsi bu sərhədin Tovuz-Qazax, Naxçıvan və İran tərəfində olan hissələri ilə müqayisədə az strateji yükə malikdir.

Azərbaycan XİN bu müraciətləri ATƏT MQ-yə göndərə və vasitəçilər sentyabr görüşünə qədər bu müraciətləri təklif formasında tərəflərə təqdim edəcək. Məcburi köçkünlərin Kəlbəcər və Laçına qayıtması ideyasının icrası Azərbaycan və Ermənistanın hər ikisinə tapşırıla bilər. Ermənistan özünün orada qalan kiçik miqyasda olan hərbi hissələrini təmizləyir, Azərbaycan isə əhalinin ora daşınması və təhlükəsizliyi ilə məşğul olur. Təhlükəsizlik məsələsində Azərbaycan ATƏT MQ-nin formalaşmış ideyalarından istifadə edə bilər.

Kəlbəcər və Laçının azərbaycanlı əhali ilə məskunlaşması Ermənistana, onun Dağlıq Qarabağ siyasətinə müsbət təsir edəcək. Ermənistanın Dağlıq Qarabağa neqativ və destruktiv təsiri minimallaşacaq.

ATƏT-in MQ həmsədrləri Azərbaycan tərəfindən verilən və reallaşdırılması çox asan olan bu ideya ilə məşğul olmayacaqsa, o halda, Azərbaycanın Dağlıq Qarabağın Ermənistanla olan kommunikasiyaları bağlamaq imkanını nəzərdən keçirilməlidir. Eləcə də, o da, nəzərə alınmalıdır ki, indi Azərbaycanın artilleriya qurğuları, raketləri hətta Azərbaycan-Ermənistan dövlət sərhədinin Laçın və Kəlbəcər arasındakı hissəsini də hərbi təlimlərin coğrafiyasına qoşa bilər.

### DAĞLIQ QARABAĞDA "DEMOKRATİYA" ADLI TEATR ŞOUSU BAŞA ÇATIR

Dağlıq Qarabağ erməniləri arasında ciddi narahatlıq var. Siyasiləşmiş sosiumda ciddi müzakirələr, bəzən etiraz aksiyalarına da çevrilir. Amma etiraz aksiyaları Qarabağ erməniləri üçün xarakterik hala çevrilməyib. Yerli hakimiyyət, heç bir irəliləyiş yarada bilməyib. Mahiyyətinə görə yarada da bilməz. Çünki hərbi-quldur rejimdir, məqsədi Dağlıq Qarabağ ermənilərini müəyyən məcrada saxlamaqdır.



Hal-hazırda qondarma Dağlıq Qarabağın keçmiş baş naziri Arayik Arutyunyan birləşdirici faktordur. Baş nazir işlədiyi dövrdə Dağlıq Qarabağa külli miqdarda xaricdən investisiya cəlb edə bilib. Xüsusilə, Livanda güclü dayaqları var idi. Bu layihələr reallaşmadı, pul A.Arutyunyanın bank hesabına oturub.

Siyasi cəhətdən kifayət qədər çevikdir. 5 avqust mitinqinin gur keçməsini o təşkil etmişdi. N.Paşinyanın manerası Dağlıq Qarabağın erməni əhalisinin daxili aləminə uyğun deyil. Paşinyanın çağırışına Dağlıq Qarabağda o qədər adam toplaşa bilməz. Bu, nonsensdir. A.Arutyunyan müəyyən rıçaqlara malikdir və bu mitinqi təşkil edə bildi. Bu mitinqin siyasi ssenarisinin müəllifi də A.Arutyunyan idi. Elə ona görə, B.Saakyanın fitə basılmasına imkan vermədi. Bu funksiyanın icraçısı Ermənistanın Təhlükəsizlik Xidmətinin rəhbəri Artur Vanetsyan idi.

A.Arutyunyan siyasi əlaqələrə malikdir. Ermənistanın keçmiş baş naziri Karen Karapetyanın qohumudur. Bu baxımdan, o, "Əskəran" qruplaşmasına yaxındır. "Əskəran" qruplaşmasında da əsas fiqur qondarma qurumun keçmiş Təhlükəsizlik Xidmətinin rəisi Samvel Balasanyandır. Yeri gəlmişkən, o da vaxtilə prezidentliyə namizəd olub və Dağlıq Qarabağdakı hərbi xuntanın hansı metodlarla işlədiyini çox gözəl bilir.

Beləliklə, Dağlıq Qarabağda baş verənləri bu qondarma qurumda prezident və yaxud hansısa bir rəhbər seçkisinə hazırlaşmaq kimi qəbul etmək düzgün deyil. Əhali sosial narazılığın ifadəsinə- xaosa doğru gedir. Bu aktivlik nəticəsində, bu vaxta qədər Dağlıq Qarabağda qurulmuş teatrallaşdırılmış tamaşanın bütün səhnə dekorasiyaları söküləcək. Dağlıq Qarabağın tərəfdarı olan bir sıra xarici siyasilər də başa düşəcəklər ki, Dağlıq Qarabağda demokratiyadan əsər-əlamət olmayıb.

***Zümrüd BAYRAMOVA***

## Daşkəsən rayon icra hakimiyyətinin başçısı vətəndaşların səyyar qəbulunu keçirib



Dünən Daşkəsən rayon icra hakimiyyətinin başçısı Əhəd Abıyevin təsdiq etdiyi qrafikə uyğun Quşçu körpüsü qəsəbəsində keçirilən növbəti səyyar qəbulunda rayonun hüquq-mühafizə



orqanlarının, idarə, müəssisə, xidmət təşkilatlarının rəhbərləri və sakinlər iştirak ediblər.

Əhəd Abıyev bildirib ki, Prezident İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq, yerlərdə keçirilən görüşlərin məqsədi sakinlərin problemlərini öyrənmək və onları həll etməkdir. Rayon rəhbəri dövlət proqramlarının icrası nəticəsində respublikanın bütün regionlarda, o cümlədən, Daşkəsəndə həyata keçirilən layihələr, abadlıq-quruculuq işləri barədə məlumat verib. Qeyd edib ki, Daşkəsəndə yeni-yeni məktəb binaları, səhiyyə ocaqları və digər sosial obyektlər tikilir, yollar və körpülər salınır. Daşkəsən şəhərinin su təchizatı layihəsində son tamamlanma işləri icra olunur, əhalinin fasiləsiz elektrik enerjisi və təbii qazla təmin edilməsi və məşğulluğunun artırılması istiqamətində mühüm tədbirlər görülür. Əhəd Abıyev onu da bildirib ki, ötən dövrlərdə Quşçu körpüsü qəsəbəsində qəzalı vəziyyətdə olan binanın sakinlərinin köçürülməsi üçün 16 mənzilli müasir yaşayış binası tikilərək, onların istifadəsinə verilmişdir. Hazırda isə yaşayış məntəqəsinin qazlaşdırılması həyata keçirilir. Cari ildə qəsəbə sakinləri təbii qazla təmin olunacaqlar.

Sonra sakinlərin müraciətləri dinlənilib. Müraciətlər əraziyə yeni su xəttinin çəkilməsi, işlə təmin olunma və digər məsələlər barədə olub.

Rayon icra hakimiyyətinin başçısı Əhəd Abıyev qəsəbə sakinlərinin problemlərini dinləyib, qaldırılan məsələlərin və müraciətlərin araşdırılaraq, həll olunması məqsədilə aidiyyəti idarə, müəssisə və təşkilatların rəhbərlərinə tövsiyə və tapşırıqlarını verib. Əksər müraciətlər yerində müsbət həllini tapıb. Qəsəbə sakinləri göstərilən diqqət və qayğıya görə, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə dərin minnətdarlıqlarını bildiriblər.

***ZÜMRÜD***

## Bakıda "Salam" Beynəlxalq Yeniyetmə Kino Festivalı keçiriləcək

Sentyabrın 2-dən 5-dək "Narimanfilm" kinostudiyası Mədəniyyət Nazirliyinin, Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqının dəstəyi və "Pasha Holding" MMC-nin və bir çox digər təşkilatların sponsorluğu ilə "Salam" Beynəlxalq Yeniyetmə Kino Festivalını keçirəcək. AZƏRTAC xəbər verir ki, 300-ə qədər 13-17 yaşlı yeniyetmənin iştirak edəcəyi festivala 10-a yaxın xarici ölkədən gənclər dəvətlidir. Festival ərəfəsində yeniyetmələr dünya kinematoqrafiyasının nümunələrinə baxaraq filmləri müzakirə edəcək və münsif kimi səs verərək qalibləri müəyyənləşdirəcək. Festival günlərində film nümayişləri ilə yanaşı, praktik məşğələlər, əyləncəli proqramlar və ekskursiyalar həyata keçiriləcək. "Salam" Beynəlxalq Yeniyetmə Kino Festivalının əsas məqsədi gəncliyimizin milli-mənəvi və ümumdünya dəyərlərinə uyğun tərbiyə olunması, Azərbaycan və digər ölkələrin yeniyetmələri arasında dostluq əlaqələrinin yaradılması, vətənimizin mədəniyyətinin təbliği, həmçinin festivalın xarici iştirakçılarının vasitəçiliyi sayəsində dünya ölkələrində Azərbaycan haqqında müsbət ictimai fikrin formalaşmasına yardımçı olmaqdır. Festivalın açılış mərasimi sentyabrın 2-də "CinemaPlus Amburan Mall"da baş tutacaq.

## Yeddi ayda əhalinin gəlirləri 32 milyard manatı ötüb



Bu ilin yanvar-iyul aylarında ölkə əhalisinin nominal gəlirləri əvvəlki ilin eyni dövrünə nisbətən 6,6 faiz artaraq 32 milyard 218,8 milyon manat təşkil edib. Əhalinin hər nəfərinə orta hesabla 3259,7 manatlıq gəlir düşüb. Dövlət Statistika Komitəsindən AZƏRTAC-a bildirilib ki, bütün icbari və könüllü ödənişlər edildikdən sonra əhalinin sərəncamında 29 milyard 559,7 milyon manatlıq və ya əvvəlki ilin eyni dövrünə nisbətən 6,7 faiz çox vəsait qalıb.

# Azərbaycanda gey prezident olacaqmı?

## *Cinsi azlığın nümayəndəsi hakimiyyətə gəlmək istəyirmi?*

**Və ya Əli Kərimlinin "prezin-dent"liyə iddia etməsi Azərbaycan üçün hansı fəlakətli perspektivi vəd edir?**

Dünyada son illər qəribə hadisələr, maraqlı proseslər baş verməkdədir. Ənənəvi cəmiyyətlərə, dərin və möhkəm adət-ənənələrə malik xalqlara milli-mənəvi dəyərləri dağıtmaq gücündə olan yad ideyaları, submədəniyyət seqmentlərini sırımaq cəhdləri müşahidə edilməkdədir. Vahid sosial-siyasi faktor kimi formalaşmış cəmiyyətlərin həm mənəvi, həm də ideoloji baxışlarının dəyişdirilməsi sanki müasir dövrün imperialistlərinin əsas məqsədinə çevrilib. Onlar bilərəkdən dünya xalqlarına geniş kütləvi kommunikasiya vasitələri vasitəsilə cinayətləri, narkotiklərdən istifadənin və fahişəliyin leqallaşdırılmasını, cinsi azlıqların hüquqlarının müdafiəsi üçün keçirilən aksiyaları, eyni cinsin nümayəndələrinin ailə qurmalarını və s. çatdırır, sanki ənənəvi cəmiyyətlərin dağıdılması üçün informasiya-ideoloji zəmin formalaşdırır.







Əlbəttə ki, Azərbaycan kimi möhkəm adət-ənənələrə malik ölkənin xalqına bu cür "mənəvi" məsələləri sırımaq o qədər də asan deyil. Lakin son dövrün hadisələri isbatlayır ki, Azərbaycanda da qeyri-ənənəvi mənəvi proseslərin ayaqlanması üçün addımlar atılır. Demokratiya donu geyindirilməklə Ermənistanda Paşinyan kimi birisinin hakimiyyətə gətirilməsindən sonra bu ölkədə artıq cinsi azlıq problemləri qabardılmağa, onların hüquqlarının müdafiəsi ilə bağlı ciddi addımların atılmasına start verilib. Eyni prosesi biz Gürcüstanda da görürük. Bu ölkədə də demokratiya adı ilə hakimiyyətə gələnlər tez bir zamanda narkotikdən istifadəni dövlət səviyyəsində leqallaşdırdılar.

Təbii olaraq sual edə bilərsiniz ki, Ermənistanda və Gürcüstanda baş verən hadisələrdən bizə nə? Məhz, toxunmaq və diqqətə çatdırmaq istədiyimiz məsələ də ondan ibarətdir ki, Paşinyan kimilərinin Cənubi Qafqaz bölgəsində ölkə rəhbərliyinə gətirilməsi ümumən regiona qeyri-ənənəvi mənəvi problemlərin sırınmasına başlanıldığına işarədir. Heç də təsadüfi deyildir ki, Cənubi Qafqaz regionunda cinsi azlıqların nümayəndələrinin hakimiyyətə gətirilməsi prosesini Azərbaycana da transformasiya etmək istəyirlər. Bu prosesdə yatırım heç şübhəsiz LGBT-nin (Lezbiyan, Gey, Biseksual və Transseksual) ciddi dəstəkçisi olan AXCP sədri Əli Kərimliyədir.

Təxminən bir il ərzində Cənubi Qafqazda baş verən hadisələrə və bu proseslərin fonunda Əli Kərimlinin ciddi-cəhdlə Paşinyan kimilərə verdiyi dəstəyə nəzər saldıqda bəlli olur ki, AXCP sədri də cinsi azlıq konsorsiumunun dəstəklədiyi "siyasətçi"dir. Amma onu da qeyd edək ki, Əli Kərimlinin cinsi azlığın nümayəndəsi olması haqqında zaman-zaman sübutlar və faktlar mətbuatın gündəmində olub. Məsələn, seçkilər zamanı Müasir Müsavat Partiyasının sədri Hafiz Hacıyev AXCP sədri Əli Kərimlinin cinsi azlıq nümayəndəsi olması haqqın sənəd ortaya qoymuşdu. Yaxud, rəqibləri Əli Kərimliyə təzyiqləri artırdıqları bir zamanda LGBT-nin üzvləri AXCP sədrini müdafiə məqsədilə aksiyalar keçirirdi.

Bütün bunlarla yanaşı Əli Kərimlinin partiyasından olan, "Azadlıq" qəzetinin müxbiri Aqil Xəlilin qeyri-ənənəvi oriyentasiyalı şəxs Strekalin Sergey Yuryeviç, passiv homoseksualist (gey) olduğunu etiraf etmiş Şahid Məmmədov Xalis Yavər oğlu, İsgəndərov Zaur Vaqif oğlu ilə müxtəlif adlar altında tanış olub cinsi əlaqədə olması haqqında faktlar və hadisələr yəqin ki hər kəsin xatirindədir. Hətta, hələ 2008-ci ildə cinsi azlıqların cinayəti üzrə aparılan istintaq zamanı bəlli olmuşdu ki, AXCP sədri Əli Kərimlinin yaxın adamı kimi tanınan Aqil Xəlilov 2007-ci ilin avqust ayında Cavadov Natiq Abdulla oğluna zəng edərək onunla "aktiv" rolunda cinsi əlaqədə olmaq istədiyini bildirmiş, lakin qarşı tərəf "passiv" rol tələb etdiyindən onların söhbətləri alınmamışdı...

Ümumiyyətlə, Əli Kərimlinin rəhbərlik etdiyi AXCP-dən bu cür "kadrlar" tez-tez ictimai rəydə nifrətlə qarşılanan hadisələrin iştirakçıları olublar. Hətta, Əli Kərimli də özü bu proseslərdən heç zaman kənarda qalmayıb, əksinə cinsi azlıqların müdafiəsi ilə siyasi dividentlər qazanmağa cəhdlər də edib. Məsələn, bir neçə il öncə AXCP sədri Əli Kərimli "Ağ Ev" in cinsi azlıqlar haqda çıxardığı sərbəst evlilik qərarından sonra sosial şəbəkələrdəki LGBT bayrağı aksiyasına qoşulub. O, sosial şəbəkədəki profilini LGBT bayrağının fonuna boyayıb. Daha bir fakt isə onun Avropadakı cinsi azlıqları müdafiə etməsi və dəstəkləməsi ilə əlaqədardır. Məsələn, bir neçə il öncə Avropa Parlamentinin vitse-prezidenti və Avropanın "Yaşıllar" partiyasının üzvü, cinsi azlıq nümayəndələrinin parlamentdəki ən radikal tərəfdarı Ulrike Lunaçekin 4-5 yaşlı uşaqlara seks dərsi keçmək "ideyası" Avropada kəskin etirazlarla qarşılansa da, Əli Kərimli həmin aksiyanın "Azadlıq" qəzetində işıqlandırılması ilə ona birmənalı dəstəyini ifadə etmişdi.

Göründüyü kimi, AXCP sədri Əli Kərimlinin siyasi-ideoloji dünyagörüşündə cinsi azlıqlarla və milli-mənəvi dəyərlərimizə zərbə vuracaq meyillərlə bağlı amillər geniş yer turur. İndi siz təsəvvür edin ki, cinsi azlıq məsələsini siyasətinin predmetinə çevirmiş birisi Azərbaycanda hakimiyyətə gəlir, prezident olur. İnanın ki, Əli Kərimlinin dövlət rəhbəri kimi verəcəyi ilk qərarlardan biri Azərbaycanda cinsi azlıqlarla, narkotiklərdən istifadənin və fahişəliyin leqallaşdırılması ilə bağlı olacaq. Çünki, bu şəxs cinsi azlıq cameəsinə məxsus olmaqla yanaşı Azərbaycan xalqına qarşı çox qəddar mövqe tutmuş birisidir. Psixoloqların təhlilləri də onu göstərir ki, xalqına və dövlətinə qarşı bu qəddar, radikal mövqe tutan bir şəxs normal şəxsiyyət ola bilməz. Onun şəxsiyyəti yarımçıq və seksual travmalarla zəngin olur. Elə Əli Kərimlinin də psixoloji portreti hazırlanarsa onun da necə yarımçıq, seksual travmalarla müşahidə edilən çigiləri ortaya çıxmış olacaq.

AXCP sədri Əli Kərimli kimi cinsi azlıqların müdafiə etdiyi və qeyri-ənənəvi oriyentasiyaya meyillənən birisinin Azərbaycanda hakimiyyətə gəlməsi xalqımızın əsrlər boyunca qoruyub saxladığı ənənələri, milli-mənəvi dəyərləri, adətləri məhv edəcək. Onun birbaşa təsiri ilə Azərbaycan xalqı tarixi adət-ənənələrindən əl çəkməyə məcbur ediləcək, ailə institutunun dağıdılmasına səbəb olacaq addımlar atılacaq. Əli Kərimlinin Aqil Xəlilov kimi "geyi", Fatimə Mövlamlı kimi "əxlaqdan uzaq yetiməsi", Natiq Ədilov kimi "ailəsinə sahib çıxa biməyən biseksualı", Məhəmməd Mirzəli kimi "avradı şərəfsiz deyə müraciət etdiyi məxluqu" olduğu halda onun necə bir dövlət rəhbəri olacağı haqqında aydın təsəvvür yaranır. Bir partiya daxilində normal əxlaqi ab-hava yaratmağı bacarmayan Əli Kərimli hansı "bacarıqla" dövlət idarə edə bilər?

***Aqil Nəsib***

## Xəbərdarlıq: Bu gün hava meteohəssas insanlar üçün əlverişsiz olacaq



Azərbaycanda avqustun 22-nə gözlənilən hava proqnozu açıqlanıb. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında hava günəşli olacaq. Şimal küləyi əsəcək, gündüz cənub-şərq küləyi ilə əvəzlənəcək. Havanın temperaturu gecə 20-24°, gündüz 33-38° isti olacaq. Abşeron çimərliklərində şimal küləyi əsəcək, gündüz cənub-şərq küləyi ilə əvəzlənəcək. Dəniz suyunun temperaturunun şimal çimərliklərində - Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh və Zuğulbada 25-26°, cənub çimərliklərində - Türkan, Hövsan, Sahil və Şıxda 26-27° isti olacağı gözlənilir. Sinoptiklərin tibbi-meteoroloji proqnozuna görə, avqustun 22-23-də Bakıda və Abşeron yarımadasında zəif küləyin üstünlüyü, arabir yaranan durğun hava şəraiti fonunda gündüz isti temperatur diskomfortu gözlənilir ki, bu da meteohəssas insanlar üçün əlverişsizdir. Naxçıvan Muxtar Respublikasında hava yağmursuz keçəcək. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 17-22°, gündüz 35-40°, bəzi yerlərdə 42° isti olacağı ehtimal edilir.

Yuxarı Qarabağ: Xankəndi, Şuşa, Xocalı, Xocavənd, Qubadlı, Zəngilan, Laçın, Kəlbəcər, Daşkəsən, Gədəbəy rayonlarında hava yağmursuz keçəcək. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 13-18°, gündüz 25-30° isti olacağı ehtimalı var.

Gəncə şəhərində, Qazax, Goranboy, Tərtər, Ağdam, Füzuli, Cəbrayıl rayonlarında hava yağmursuz keçəcək. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 18-23°, gündüz 33-38° isti olacağı proqnozlaşdırılır. Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında hava yağmursuz keçəcək. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 19-24°, gündüz 31-36° isti, dağlarda gecə 10-15°, gündüz 23-28° isti olacağı bildirilir.

Mərkəzi Aran: Mingəçevir və Şirvan şəhərlərində, Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Hacıqabul, Salyan, Neftçala rayonlarında hava yağmursuz keçəcək. Səhər bəzi yerlərdə duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 18-23°, gündüz 35-40°, bəzi yerlərdə 42° isti olacağı gözlənilir.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara rayonlarında hava yağmursuz keçəcək. Səhər dağlarda duman müşahidə ediləcək. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 17-22°, gündüz 33-38° isti, dağlarda gecə 14-19°, gündüz 27-32° isti olacaq.

# Əsas insan hüquqları

***Hüquq ədəbiyyatlarında insan hüquqları əksər hallarda əsas insan hüquqları konstitusion hüquqlar kimi nəzərdən keçirilir. Artıq qeyd etdiyimiz kimi, əsas insan hüquqları və azadlıqları səxsiyyətin subyekti hüquqi hüquq və azadlıqlarıdır. L.A.Morozova yazır: "Dövlət və hüquq nəzəriyyəsində subyektiv hüquqi hüquqlar dedikdə, bir qayda olaraq, formal, müəyyən sosial resurslardan istifadə etmək imkanının hüquqi təminatı, cəmiyyətdə davranışların rəsmi ölçüləri başa düşülür. Subyektiv hüquqi azadlıq elmi dairələrdə əksər hallarda subyektiv hüquqi hüquqla sinonim kimi işlədilir. Lakin bu iki anlayışın tam eyniləşdirilməsi yanlış olardı." Artıq əsaslandırdığımız kimi, "əsas hüquq və azadlıqlar" termininin geniş tətbiq edilməsi insan və vətəndaşın digər ümumi qəbul olunmuş digər hüquq və azadlıqların inkar edilməsi anlamına gəlməməlidir. Yuxarıda əsas hüquq və azadlıqların səciyyəvi xüsusiyyətlərini rəzərdən keçirdik. Daşqın Qəmbərov yazır: "Digər hüquq və azadlıqlardan əsas hüquq və azadlıqların ümumiləşdirilmiş şəkildə fərqli cəhətlərini, əlavə olaraq, aşağıdakı kimi nəzərdən keçirmək mümkündür: əsas hüquq və azadlıqlar, bir qayda olaraq, dövlətin Ali Qanunda-Konstitusiyada təsbit olunur;***



- əsas hüquq və azadlıqlar subyektlər baxımından məhdudiyyətlərə malik deyillər. Yəni əsas hüquq və azadlıqlar, ya hər bir insana, ya da hər bir vətəndaşa məxsus olurlar. Digər hüquq və azadlıq konkret subyektlər dairəsinə aid olur. Məsələn, belə subyektlər dairəsinə hərbçilər, hakimlər, deputatlar və s. aid oluna bilərlər;

- əsas hüquq və azadlıqlar təsisçi xarakterə malikdirlər, onların sistemi şəxsiyyətin hüquqi statusunun əsasını təşkil edir;

- əsas hüquq və azadlıqlar ayrılmazdırlar və doğulduğu gündən hər bir insana məxsusdurlar. Əsas hüquq və azadlıqlar fərdin vətəndaşlığı ilə qırılmaz şəkildə bağlıdır;

- əsas insan hüquq və azadlıqları fərdin konkret hüquq münasibətlərində iştirakı ilə bağlı deyildir. Onlar hər zaman mövcuddurlar və hər bir hüquq münasibətlərində olurlar. Əsas hüquq və azadlıqlardan fərqli olaraq, digər hüquq və azadlıqlar əksər hallarda şəxsin bu və ya digər hüquqi münasibətlərdə iştirakı ilə şərtləndirər və hətta belə iştirakın nəticəsi olaraq meydana gəlirlər. Məsələn, satıcının alıcıdan aldığı mala görə ödəniş tələb etməsi hüququ konkret halda yaranır. Yəni alqı-satqı prosesi baş verdiyi təqdirdə, satıcının bu hüququ meydana gəlir. Deməli, konkret proses müşahidə olmadığı təqdirdə, müvafıq hüquqların meydana gəlməsindən də danışmaq mümkün deyil;

- əsas hüquq və azadlıqlar həm fərdi, həm də vətəndaş cəmiyyətinin siyasi, sosial, iqtisadi və mədəni sahələrdə həyat fəaliyyəti ilə bağlı vacib münasibətləri əhatə edirlər. Deməli, əsas hüquq və azadlıqlar konstitusiyada təsbit olunmaqla, həm də həyat fəaliyyətinin ən mühüm münasibətlərini əhatə edirlər".

Müəllif haqlı olaraq, qeyd edir ki, əsas insan hüquq və azadlıqlarının müəyyən xüsusiyyətlərini nəzərdən keçiməklə, onların əlamətləri haqqında ümumiləşdirilmiş mülahizələr irəli sürmək mümkündür:

1. İnsanın müəyyən tərzdə davranmaq və ya müəyyən fəaliyyətlərdən çəkinmək imkanları. Bu imkanlar tələbatların ödənilməsinə yönəlmişdir ki, onlarsız fərd normal mövcud ola və inkişaf edə bilməz;

2. İnsanın biososial mahiyyəti ilə şərtlənən imkanlar. Bu imkanlar insana anadangəlmə məxsus olur və kənardan hər hansı bir tənzimlənməyə məruz qalmır. Hətta dövlətin özü belə bu məsələyə müdaxilə etmir. Bunlar elə insanın təbii ayrılmaz hüquqları kimi nəzərdən keçirilir;

3. Dövlətin ərazisi ilə məhdudlaşdırılmayan imkanlar. Bundan başqa, bu imkanlar insanın milli mənsubiyyətindən də asılı olmurlar. Yəni insan, məhz insan olduğuna görə, bu imkanlara malikdir. Bu imkanlar insanın təbiətindən qaynaqlanır və insanda şəxsi ləyaqət hissinin və onun fərdiliyinin saxlanılmasını şərtləndirir;

4. Cəmiyyətin imkanlarından asılı olan imkanlar. Yəni cəmiyyətin imkanları dedikdə, onun iqtisadi, siyasi, sosial, mənəvi və mədəni inkişafı nəzərdə tutulur. Sözsüz ki, insanın üzünün tələbatları kimi, cəmiyyətin inkişaf səviyyəsində dəyişməz olaraq qalmır;

5. Hüquqi xarakterə malik olan imkanlar. Yəni bu imkanlar dövlət sərhədləri daxilində və beynəlxalq müstəvidə yaradılan qanunvericilik aktlarında əks olunurlar. Əsas insan hüquqlarının dövlətlər tərəfindən qəbul edilməsinin, gözlənilməsinin, qorunmasının beynəlxalq səviyyədə təsbit olunması, bir daha sübut edir ki, bu hüquqlar təkcə beynəlxalq tənzimlənmənin obyekti rolunda deyil, həm də beynəlxalq standartlar rolunda çıxış edirlər. İnsan huquqları zamanın keçməsi ilə bütün beynəlxalq birliyə məxsus olan dəyər kəsb etmiş və beynəlxalq hüquqda hüquq standartı kimi əsaslandırılmışdır. Bu standartların tətbiq olunmasına bütün dövlətlər və xalqlar can atmalıdır. Bu hüquqların qəbul olunduğu gündən hər bir insan beynəlxalq humanitar və milli hüquqlara müvafiq olaraq, müəyyən hüquqi statuslara malik oldular. İnsan hüquqlarına aid beynəlxalq paktlar dövlət qarşısında hüquqların, qanunvericilik də daxil olmaqla, bütün zəruri vasitələrlə təmin olunması öhtəliklərini qoymuşdur. Beynəlxalq Konvensiyaların yerinə yetirilməsi ilə bağlı öz üzərinə öhtəliklər götürmüş hər bir ölkə bu razılaşmaların prinsiplərini və normalarını əsas götürməli və daxili qanunvericiliklərində əks etdirməlidir. İnsan hüquqları üzrə beynəlxalq sənədlərin yerinə yetirilməsi üzrə öhtəliklər götürmüş dövlət hər bir kəsin hüquqların həyata keçirilməsi və qorunması üçün şərait yaratmalıdır. Müasir dünya dövlətlərinin, demək olar ki, hamısının konstitusiyaları əsas insan hüquqlarına təminat verən normaları əks etdirirlər. Təsadüfi deyildir ki, əksər inkişaf etmiş ölkələrin vətəndaşları üçün əsas qanun rolunda, məhz konstitusiya çıxış edir və onlara konstitusiyanın birbaşa təsirini izah etməyə ehtiyac yoxdur. Bu ölkələrin vətəndaşları hər dəfə öz hüquqlarını qorumaq üçün konstitusiyaya müraciət edirlər. Belə ki, konstitusiya hər bir kəsin hüquqlarına təminat verir. Bu hüquqlar sırasında əsaslar kimi, şəxsi həyatın toxunulmazlığı, şəxsi və ailə sirri, şərəf və layəqətin qorunması və s. hüquqları qeyd etmək olar. Şəxsin icazəsi olmadan, onun şəxsi həyatı haqqında informasiyanın toplanması, saxlanılması, istifadə edilməsi və yayılması, demək olar ki, bütün dünya dövlətlərinin konstitusiyaları tərəfindən qadağan edilir.

D.Qəmbərov yazır: "Qeyd etdiklərimizdən başqa, dünya dövlətlərinin əksəriyyətinin konstitusiyaları, universal olaraq, aşağıdakı şəxii hüquqları təsbit edirlər;

- mənzil toxunulmazlığı hüququ;

- özünün milli mənsubiyyətinimüəyyənetməkvə göstərmək;

- ana dilindən istifadə etmək;

- vətəndaşı olduğu dövlətin ərazisində sərbəst hərəkət etmə, yaşayış yerini seçmə və s.

Müasir dünya dövlətlərinin əksəriyyətinin konstitusiyaları hüquqlar kateqoriyasına aid olan kompleks hüquq və azadlıqları əks etdirir və onlara təminat verir. Bu hüquqlar şəxsiyyətin fəal həyat mövqeyi, ictimai həyatda iştirakı və ümumiyyətlə, cəmiyyətə münasibəti ilə bağlıdırlar. Belə hüquqları sosial hüquqlar adı altında nəzərdən keçirirlər".

Beləliklə, apardığımız təhlillərə əsasən, qeyd edə bilərik ki, əsas insan hüquqlarının təsnifatı şərtidir və yalnız müəyyən kriteriyalar əsasında mümkündür. Bu hüquqların başlıca səciyyəvi cəhətlərindən biri də, ondan ibarətdir ki, onlar arasındakı sərhədlər kifayət qədər şəffafdır. Belə olan halda, bu sərhədləri müəyyənləşdirmək olduqca çətin olur. Apardığımız tədqiqatlar sübut edir ki, eyni hüquq və azadlıq bir neçə hüquqlar kateqoriyasına aid edilə bilər. Xüsusilə də, sosial və mədəni əsas insan hüquqları arasındakı sərhədlər ciddi mübahisələrə səbəb ola bilər. Formalaşması xarakterinə görə hüquq və azadlıqlar, əsas və əlavə hüquqlar kimi nəzərdən keçirilir. Daşıyıcılarından asılı olaraq, insan və vətəndaş hüquq və azadlıqları sərhədləndirilir. Subyektlərin növlərindən asılı olaraq, fərdi və kollektiv hüquqlar, məzmununa görə şəxsi, siyasi, iqtisadi, sosial və mədəni hüquqlar fərqləndirilirlər. Əsas insan hüquqları sisteminə daxil olan şəxsi, siyasi, iqtisadi, sosial və mədəni hüquqlar hüquq elmi çərçivəsində daha müntəzəm müzakirə obyekti olmaqdadır." Bütün əsas insan hüquq və azadlıqları fəaliyyət sferalarına müvafiq olaraq, müəyyən sistem formalaşdırırlar. Bu fəaliyyət sferaları da, dəqiq sərhədlərə malik deyillər və onların ümumi qəbul olunmuş təsnifat şərti xarakter daşıyır. Müvafiq olaraq, ayrı-ayrı fəaliyyət sahələrinə aid olan hüquq və azadlıqlar kifayət qədər oxşardırlar. Bu baxımdan, əsas insan hüquqları və azadlıqları məsələsi ətrafında elmi müzakirələrin və mübahisələrin həlləuzunmüddətdavam edəcəyini proqnozlaşdırmaq mümkündür.

**Vahid Ömərov,**
**fəlsəfə üzrə fəlsəfə doktoru**




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

SƏS

Son səhifə 22 avqust

## Səudiyyə Ərəbistanda incəsənət akademiyası açılacaq




Səudiyyə Ərəbistanının Mədəniyyət naziri Bədr bin-Abdullah bin-Farxan əl-Səud ölkəsində incəsənət akademiyasının açılmasına göstəriş verib. TASS agentliyi xəbər verir ki, akademiyanın açılışı “Quality of Life” proqramının tərkib hissəsidir. Bu ölkədə nəşr olunan “Saudi Gazette” qəzetinin yaydığı məlumata görə, yaxın zamanlarda iki akademiya inşa olunacaq. Onlardan biri Səudiyyə Ərəbistanının mədəni irsinə, digəri isə musiqiyə xidmət edəcək.

## Milyarderin avtomobili Günəşin ətrafında ilk dəfə dövrə vurub



“SpaceX” kosmik şirkətinin sahibi olan məşhur milyarder İlon Maskın sükanının arxasında skafandr geyindirilən maneken olan “Tesla Roadster” markalı avtomobili Günəşin ətrafında ilk dövrə vurub. Space.com portalında yer alan məlumatda deyilir ki, 2018-ci ildə kosmosa göndərilən bu avtomobil Günəşin ətrafında 557 gün ərzində tam dövrə vurur. Hesablamalara görə, “Tesla Roadster” artıq kosmosda 1,2 milyard kilometr məsafə qət edib. Start vaxtı onun salonunda Devid Boyinin “Life on Mars” (“Marsda həyat”) mahnısı səsləndirilib. Əgər avtomobilin akkumulyatoru hələ də işlək vəziyyətdədirsə, onda bu mahnısını səsyazısının 150 min dəfə təkrar olunduğu ehtimal edilir.

Portalın xəbərində qeyd edilir ki, sükan arxasında manekenin oturduğu avtomobil hələ bir çox dəfə Günəşin ətrafında dövr edəcək, lakin son nəticədə, təxminən milyon il sonra Veneranın yaxud Yerin atmosferinə daxil olacaq və öz mövcudluğunu bitirəcək. Onun Yerə qayıtma şansı cəmi 6 faizdir, Veneranın atmosferinə daxil olma ehtimalı isə 2,5 faiz olaraq qiymətləndirilir.

## Vegeterianlara xəbərdarlıq: Qida rasionunu müəyyənləşdirərkən ehtiyatlı olun!

Gündəlik qida rasionunda meyvə-tərəvəz və göyərti məhsullarından istifadə edənlər vegeterian kimi xarakterizə olunurlar. Onu da qeyd etmək lazımdır ki, onlar qida pəhrizi ilə məşğul olmurlar və bunu xüsusi həyat tərzinə çevirirlər.



Azərbaycan Tibb Universitetinin qidalanma və kommunal gigiyena kafedrasının müdiri İbrahim Əhmədov AZƏRTAC-a deyib: “Vegeterianlığın bir neçə növü var. Onların bəziləri süd və ağartı məhsulları, yumurta, hətta ət və balıqdan, bəziləri qırmızı ətdən, bəziləri balıq və toyuqdan, bəziləri isə ümumiyyətlə heyvan mənşəli qidalardan imtina edirlər.

Vegeterianlar qida rasionunu müəyyənləşdirərkən olduqca ehtiyatlı davranmalıdırlar, çünki onların müəyyən ərzaq qrupunu istehlak etməməsi orqanizmdə qida çatışmazlığına səbəb ola bilər.

Tərkibində zülalla zəngin olan paxlalı bitkilərdən daha çox istifadə olunmalıdır. Mütləq şəkildə mineral suların müəyyən növləri qəbul edilməlidir ki, orqanizm lazım olan vitaminlərlə təmin edilə bilsin”.

### ELAN

**08.11.1999-cu ildə HƏKX tərəfindən Süleymanov Emil Əhməd oğlunun adına verilmiş veteran vəsiqəsi itdiyi üçün etibarsız sayılır.**

## Məhəmməd Salah: “Liverpul”da xoşbəxtəm




“Liverpul”un hücumçusu Məhəmməd Salah “Real”a keçəcəyi ilə bağlı yayılan iddialara münasibət bildirib. Belə ki, misirli hücumçu CNN-ə açıqlamasında “Liverpul”u tərk etmək fikrində olmadığını deyib. “Liverpul”da xoşbəxtəm. Buradakı azarkeşlər məni çox sevir və bundan daha da ruhlanıram. Komandada nailiyyət qazanmaq üçün çox çalışmaq lazımdır. Ötən mövsüm Çempionlar Liqasının qalibi olduq. Amma bu artıq arxada qaldı. Yeni mövsüm başlayır və biz ötən illərdə olanları unudub, cari mövsüm yeni titullar qazanmaq üçün döyüşəcəyik”. Qeyd edək ki, İngiltərə millisinin sabiq futbolçusu Qari Nevil “Sky Sports” kanalına açıqlamasında adı “Real”la hallanan futbolçunun “Liverpul”dan ayrılacağını bildirib: “Salah növbəti il komandanı tərk edəcək, buna əminəm” - deyə Nevil bildirib.

## Frank Riberi rəsmən “Fiorentina”da!




“Bavariya”nın sabiq yarımmüdafiəçisi Frank Riberi karyerasını “Fiorentina”da davam etdirəcək. İtaliya klubunun rəsmi Tvitter səhifəsində yer alan məlumatda deyilir ki, artıq Florensiyaya gedən fransalı oyunçunu hava limanında “Fiorentina”nın nümayəndələri qarşılayıblar. 36 yaşlı futbolçu təyyarədən enən kimi üzərində klubun loqosu olan köynəyi geyinib və klubun şarfını tutaraq şəkil çəkdirib. Bu gün”Fiorentina”nın Riberini rəsmən təqdim edəcəyi bildirilib.

## APOEL “Ayaks”la heç-heçə etdi, “Brügge” və “Slaviya”dan qələbə



Futbol üzrə UEFA Çempionlar Liqasında pley-off mərhələsinə start verilib. SİA-nın məlumatına görə, ilk oyun günündə 3 matç keçirilib . Azərbaycan çempionu “Qarabağ” III təsnifat mərhələsində mübarizədən kənarlaşdıran APOEL doğma meydanda “Ayaks”la qarşılaşıb və qolsuz bərabərə qalıb. “Brügge” səfərdə LASK-a, “Slaviya” ÇFR-ə qalib gəlib - 1:0. Çempionlar Liqası, pley-off mərhələsi 20 avqust 23:00. LASK (Avstriya) - “Brügge” (Belçika) - 0:1 Qol: Vanaken, 10-pen 23:00. APOEL (Kipr) - “Ayaks” (Hollandiya) - 0:0 23:00. ÇFR (Rumıniya) - “Slaviya” (Çexiya) - 0:1 Qol: Masopust, 28

## Bədii gimnastika üzrə dünya çempionatı “Tokio 2020”yə lisenziya xarakteri daşıyacaq




Azərbaycan Gimnastika Federasiyası ilin ən önəmli yarışlarından birinə hazırlaşır. Bakı 14 ildən sonra - sentyabrın 16-22-də bədii gimnastika üzrə dünya çempionatına ev sahibliyi edəcək. AZƏRTAC federasiyaya istinadla xəbər verir ki, zərif gimnastlar Milli Gimnastika Arenasında 1 həftə boyunca öz güclərini sınayacaqlar. Həm fərdi gimnastlar, həm qrup hərəkətləri komandaları ayrı-ayrı alətlər və çoxnövçülük üzrə mübarizə aparacaq, həmçinin komanda hesabında da ən yaxşıların adları açıqlanacaq.

Dünya çempionatı “Tokio 2020” Yay Olimpiya Oyunlarına lisenziya xarakteri daşıyacaq. Çempionat yalnız medalçıları deyil, həm də Olimpiadaya namizədlərin adlarını da müəyyənləşdirəcək. Belə ki, fərdi proqramda çoxnövçülük üzrə ilk 16 yerdə qərarlaşan gimnastlar (bir ölkədən maksimum 2 gimnast olmaqla) lisenziya əldə etmiş olacaq.

*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet “Səs”in komputer mərkəzində yığılır, səhifələnir.
“Azərbaycan” nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**